RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 17 (8610) ÇƏRŞƏNBƏ AXŞAMI, 26 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



**◆ Qarabağ dirçəliş yolundadır**



# "İlham Əliyev Qarabağa yolumuzu açdı"

## Ağdamlılar qayıdış gününü səbirsizliklə gözləyirlər

*- Bala, 28 ildir bu günü gözləyirdim, ümidimi bir gün də itirməmişdim... İlham Əliyevə qurban olum, Qarabağı, Ağdamı yenidən bizə qaytardı. Günlərdir ki, sevincimdən gözümün yaşı qurumur. İndi gözləyirəm ki, deyəcəklər hazırlaşın, sabah Xaçındərbəndə qayıdırsınız. Vallah, dizin-dizin sürünərək gedərəm. Təki şəhid oğlum Maisin qəbir yerini tapıb torpağının ətrini içimə çəkim, ondan sonra Allah canımı alsın, bəsimdi... 27 il öncə doğma el-obasından didərgin düşmüş 79 yaşlı Güləbəst nənənin bu diləyi təkcə onun yox, bütün ağdamlıların arzusudu. Artıq onlar məcburi köçkün deyillər və doğma yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər.*

### "Bilirdim ki, bir gün İlham Əliyev Qarabağı qaytaracaq"

Ağdamın Quzanlı qəsəbəsində məcburi köçkünlər üçün salınmış qəsəbədə yaşayan Güləbəst nənə 1942-ci ildə Sırxavənd kəndində anadan olub. Xaçındərbəndə gəlin köçüb. 20 il bu kənddə südçülük sovxozunda çalışıb. Oğlu Mais Hüseynov 1992-ci ildə Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalıb. Ağdamın Şəhidlər xiyabanında dəfn olunub.

İndi 79 yaşlı ağbirçəyin arzusu ilk olaraq oğlunun məzarını tapmaq və sonra Xaçındərbəndə - 27 il öncə tərk etdiyi yurd yerinə qayıtmaqdır. *"Şükürlər olsun ki, bu günü görmək mənə nəsib oldu. Vallah, İlham Əliyevə inanırdım. Ona canım qurban olsun. Bilirdim ki, o, bir gün Qarabağı əsl sahiblərinə qaytaracaq. Allaha yalvarırdım ki, o günü görməyi mənə nəsib etsin. Allah Prezidentimizə, xanımı Mehriban Əliyevaya uzun ömür versin. Mən artıq ömrümü yaşamışam. Bundan sonra balalarımın, nəvələrimin Ağdamda keçirəcəyi xoş günlərə görə sevinirəm. İlham Əliyev Qarabağı necə azad etdisə, eləcə də onu yenidən gözəlləşdirəcək, Ağdam həmişəki kimi Qarabağın gözü olacaq. Ağdamlılar həmişə Prezidentimizin, Mehriban xanımın dəstəyini görüb, onlara inanıblar. Allah onları min budaq etsin, nə qədər alqış etsək azdı".*

### "Ayaqyalın gəzdiyim küçələrə elə ayaqyalın da geri qayıdacam"

Güləbəst nənənin oğlu Ramin Hüseynov deyir ki, 27 ildir doğma kəndə, el-obaya həsrət qalıblar: "Hər zaman yuxularımda görürdüm kəndimizi. Ayılıb deyirdim ki, bircə dəfə xəlvəti yolla kəndimizə gedib qoxusunu ala bilsəydim, xoşbəxt olardım. Amma gör, zaman necə dəyişdi, xəyal etdiklərim reallığa çevrildi. İndi nəinki kəndimizin qoxusunu alacam, hətta ayaqyalın gəzdiyim küçələrlə elə ayaqyalın da geri qayıdacam. Qar, şaxta, boran da olsa, yenə də sözümü tutacam. Orada uşaqlığım, ən əziz illərim keçib. İndi o xoş xatirələrim gerçəkliyə çevrilir. Ağdamdan çıxanda subay idim, indi övladlarımla doğma yurduma qayıdacam. Özü də bu torpaqlar uğrunda savaşan igid oğlumla geri dönəcəyik".

Ramin Hüseynovun oğlu Xanlar Hüseynov Vətən müharibəsinin iştirakçısıdır. Könüllü olaraq savaşda iştirak edib. Suqovuşan uğrunda gedən döyüşlərdə ağır yaralanıb. Prezident İlham Əliyevin sərəncamı ilə "Cəsur döyüşçü" medalı ilə təltif edilib.

Bu gün Hüseynovlar ailəsinin hər bir üzvü Xaçındərbənd kəndinə qayıtmaq üçün səbirsizlənir. Doğma kəndə qayıdacaqları günü gözləyirlər.

### "Bu gün desinlər qayıdırsınız, yüyürə-yüyürə qayıdaram"

Qəsəbədə olarkən şahidlik etdiyimiz mənzərə, həqiqətən də, bizi çox qürurlandırdı. Sevinc hissi yaşayan hər kəs böyük qayıdışla bağlı təəssüratlarını bizimlə bölüşürdü. Həmsöhbət olduğumuz insanların hamısının fikri demək olar ki, birdir: "Var olsun Ali Baş Komandanımız! Eşq olsun Müzəffər Azərbaycan Ordusuna! Hər zaman olduğu kimi, bu gün də Ağdamı bizə qaytaran İlham Əliyevə duaçıyıq..."

Qonağı olduğumuz Əhmədovlar ailəsi də səbirsizliklə doğma yurdlarına qayıdacaqları günü gözləyir. Onlar Ağdamın Saybalı kəndindəndirlər. Evin ağsaqqalı, 63 yaşlı Eldar Əhmədov deyir ki, kənddən çıxarkən 35 yaşı olub. Əli Bayramov adına Üzümçülük Sovxozunda sürücü işləyirmiş.

Ardı 5-ci səh.

## Məhəmməd Cavad ZƏRİF:

## "Bu qələbə Sizin rəhbərliyiniz və Azərbaycan xalqının mətanəti sayəsində mümkün olmuşdur"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul edib. AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz.

**Məhəmməd Cavad ZƏRİF:**

- Təşəkkür edirəm, cənab Prezident. Mən Prezident Ruhaninin ən xoş arzularını və salamlarını çatdırıram.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun. Mənim də ən səmimi salamlarımı və yeni ildə ən xoş arzularımı cənab Prezidentə çatdırın. İl artıq başlayıb və mən planlarımızı müzakirə etmək, görülmüş işlərə yenidən nəzər salmaq üçün sizi Azərbaycanda qəbul etməyə şadam. Biz ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Bildiyiniz kimi, biz çoxsaylı - prezidentlər səviyyəsində 10-dan çox, eləcə də digər yüksəkrütbəli rəsmilər səviyyəsində görüşlər keçirmişik. Bu görüşlərin hamısı çox səmərəli olub. Bu yaxınlarda ölkənizdə səfərdə olan Baş nazirin müavini Şahin Mustafayev mənə aparılan müzakirələr və razılaşmalar barədə hesabat verdi. Biz planlaşdırdığımız bütün işləri həyata keçirmişik. Biz son bir neçə ildə iki qardaş ölkənin çox yaxın olduğu siyasi sahədə, iqtisadi sahədə, nəqliyyat, enerji sahələrində çox yaxşı nəticələr görürük. Bizim bu gün diqqətimizdə olan "Şimal-Cənub nəqliyyat dəhlizi" kimi bütün layihələr, enerji infrastrukturu ilə bağlı layihələr uğurla inkişaf edir. "Şimal-Cənub nəqliyyat dəhlizi" işləyir. Mənə indicə məlumat verilib ki, ötən il yükdaşımaların həcmi demək olar ki, 20 faiz artıb. Bu, çox müsbət nailiyyətdir. Baxmayaraq ki, onu tam şəkildə başa çatdırmamışıq, biz bu istiqamətdə hərəkət edirik.

Regionda yeni vəziyyətlə əlaqədar yeni imkanlar, sözsüz ki, özəl investorlar, həmçinin dövlət qurumları üçün əməkdaşlığa geniş qapılar açır. Hazırda yeni nəqliyyat əlaqələri müzakirə mərhələsindədir və sözsüz ki, bizim Xudafərin su anbarı ilə bağlı əməkdaşlığımız və elektrik stansiyasının tikintisi ilə əlaqədar gələcək planlar artıq çox aktiv fazadadır. Ümidvaram ki, qarşıdakı bir neçə ildə bu layihəni tamamlaya və hər iki tərəfi yeni elektrik enerjisi istehsalı ilə təmin edə biləcəyik. Həmçinin bizim bir neçə il əvvəl yüksək səviyyədə razılaşdırdığımız layihə - Ordubad və Marazad elektrik stansiyaları ilə bağlı işlər uğurla gedir. Beləliklə, bizim geniş gündəliyimiz var. Bundan əlavə, ümidvaram ki, tezliklə çay üzərindən yeni körpünün təməlqoyma mərasimi keçiriləcək və bir çox digər məsələlər.

Bizim müzakirə edəcəyimiz çox məsələlər var. Mən, ilk növbədə, ikitərəfli əlaqələrimizi, onların səviyyəsini, inkişaf tempini, nailiyyətləri və yeni planları yüksək qiymətləndirdiyimi bildirmək istərdim. Əlbəttə ki, biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq. Bu, təbiidir, çünki dediyim kimi, yalnız dost ölkələr bizim tərəfdaşımız olacaq. Sözsüz ki, İran şirkətlərinin bizə yaxın yerləşməsi, logistika və böyük təcrübə kimi üstünlükləri var. Beləliklə, cənab nazir, bir daha xoş gəlmisiniz.

**Məhəmməd Cavad ZƏRİF:**

- Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Əvvəlcə Sizi və Azərbaycan xalqını ərazilərinizi azad etməyiniz münasibətilə təbrik etmək istərdim. Ölkəniz və region baxımından bu qələbə Sizin rəhbərliyiniz və Azərbaycan xalqının mətanəti sayəsində mümkün olmuşdur. Ümid edirik ki, bu, region dövlətləri arasında dinc və normal münasibətlərin başlanğıcı olacaqdır. Mən Sizin "3+3" əməkdaşlıq formatı təklifinizə uyğun olaraq, regionun 6 ölkəsini ziyarət edəcəyəm, yəni 5 üstəgəl İran. Sizin sülhlə bağlı təqdim etdiyiniz baxışınızın müzakirəsi və onun reallığa çevrilməsini təmin etmək üçün çalışacağam, çünki region ölkələrinin bir-biri ilə əməkdaşlıq edə bilməsi hamımızın maraqlarına uyğundur.

Ölkənizin ərazi bütövlüyünün bərpası və işğala son qoyulması, habelə azərbaycanlıların öz doğma yurdlarına qayıtmaq imkanı əldə etməsindən sonra artıq normal vəziyyət mövcuddur və İran bu işdə yardımçı olmaq arzusundadır. Biz Sizin dostunuz olmaqdan əlavə, yaxın qonşuyuq və əhalinin qayıdacağı, yenidənqurma işlərinin aparılacağı ərazilərinizin bərpası baxımından digər ölkələr ilə müqayisədə üstünlüyə malikik. Biz o insanları ailə və soydaş hesab edirik. Arazın hər iki sahili boyu hər zaman soydaşlıq və dostluq münasibətləri mövcud olub.

Energetika, yenidənqurma və geri dönəcək əhalinin yaşayışı üçün vasitə ola biləcək kənd təsərrüfatı kimi sahələr bizim üçün prioritet təşkil edir və şirkətlərimiz işə başlamağa hazırdır. Zati-aliniz tərəfindən qeyd edilən layihələrə gəldikdə, bildirmək istəyirəm ki, biz Sizin rəhbərliyiniz altında bu günə qədər həyata keçirdiyimiz səfərlər, o cümlədən ölkənizin Baş nazirinin müavini və xarici işlər nazirinin İrana olduqca uğurlu səfərlərini yüksək qiymətləndiririk. Biz Şimal-Cənub və Cənub-Qərb dəhlizləri çərçivəsində həmin sahələr üzrə işləmək arzusundayıq. Buraya elektrik enerjisinin istehsalı, energetika, "Xudafərin" və "Qız qalası" hidroqovşaqları ilə bağlı əməkdaşlıq və digər məsələlər də aiddir. Çox şadıq ki, rəsmilərinizin İrana səfərləri zamanı bu layihələr üzrə sürətli irəliləyiş əldə olunmuşdur və artıq biz ölkələrimiz arasında daha uzun birgə dostluq sərhədinə sahib ola bilərik.

**Prezident İlham ƏLİYEV:**

- Əlbəttə. Bildiyiniz kimi, mən Xudafərin ərazisinə səfər edərkən həmin sərhədi dostluq sərhədi adlandırdım. Bu, məhz dost və qardaş xalqların sərhədidir.



## Qonaqlarımız Qarabağa həm də təyyarə ilə gələcəklər

### Azad edilmiş ərazilərdə tikiləcək iki hava limanı yerli əhalinin rahatlığına və turizmin inkişafına xidmət edəcək

Hazırda diqqət mərkəzində olan əsas məsələ işğaldan azad edilmiş torpaqlarımızda tikinti, abadlıq, quruculuq işlərinin aparılmasıdır.

Bu sahədə ilkin infrastruktur layihələrinin icrasına artıq başlanıb. Keçdiyi ərazinin relyefinin yaratdığı çətinliklərə və indi fəsillə bağlı havaların şaxtalı-qarlı olmasına baxmayaraq, Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolunun inşası davam edir.

Ardı 5-ci səh.

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı şəxslərin (ailələrin) 2021-2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla tədbirlər planını təsdiq edib həyata keçirsin:

1.1. 2014-cü il yanvarın 1-dən 2020-ci il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər;

1.2. yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və 2020-ci ildə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri.

2. Yerli icra hakimiyyəti orqanları:

2.1. bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən şəxslər barədə məlumatları Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsinlər;

2.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müraciəti əsasında bu Sərəncamın 1-ci hissəsində göstərilən məqsədlər üçün torpaq sahələrinin ayrılmasını təmin etsinlər və hər il görülmüş işlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təklifləri əsasında bu Sərəncamın 1-ci hissəsində göstərilən tədbirlər planının həyata keçirilməsi üçün tələb olunan vəsaitin 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) bölgüsünün layihəsində, 2022-2025-ci illərdə isə hər il dövlət büdcəsinin tərtibi prosesində dövlət əsaslı vəsait qoyuluşunda (investisiya xərclərində) nəzərdə tutulmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Sərəncamın icrası ilə bağlı görülmüş işlər barədə hər növbəti ilin birinci ayında Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2021-ci il*



## Ölkəmiz postmüharibə və postpandemiya dövrünü də uğurla başa vuracaq

Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr edilən videoformatda keçirilən müşavirədə müzakirə edilən məsələlərdən biri də koronavirus pandemiyası şəraitində ölkə iqtisadiyyatının real vəziyyəti və perspektivləri ilə bağlı olmuşdur.

Dövlət başçısı koronavirusun bütün dünya üçün çox böyük sınaq olduğunu və ölkəmizdə bu imtahandan minimum itki ilə çıxmaq üçün vaxtında lazımi tədbirlər görüldüyünü qeyd etmişdir: "Operativ tədbirlər nəticəsində yeni xəstəxanalar tikildi, laboratoriyalar alındı. Həkimlər səfərbər olundu.

Ardı 5-ci səh.

# Görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2021-ci ilin fevral ayında dünya şöhrətli alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, professor Lütfi Zadənin (Lütfəli Rəhim oğlu Ələsgərzadənin) anadan olmasının 100 illiyi tamam olur.

Lütfi Zadə fundamental nəzəriyyələri ilə elm tarixində ciddi dəyişikliklərə yol açmış görkəmli şəxsiyyətlərdəndir. Alimin ardıcıl tədqiqatlarının nəticəsi olaraq irəli sürdüyü qeyri-səlis məntiq nəzəriyyəsi müxtəlif elm sahələrinin müasir mərhələdə inkişafında dərin iz qoymuş və yeni yanaşma üsulları meydana gətirmişdir. Bu nəzəriyyə üstün intellektual texnologiyalara güclü təsir göstərmiş, müasir idarəetmə və informasiya-kommunikasiya sistemlərinin əsaslarının formalaşdırılmasında mühüm rol oynamışdır.

Lütfi Zadə dünya miqyasında əsərlərinə ən çox istinad olunan alimlərdəndir. Onun yaratdığı elmi məktəb və laboratoriyalar bir sıra ölkələrdə yarım əsrdən artıqdır ki, uğurla fəaliyyət göstərməkdədir. Azərbaycanlı olduğunu fəxrlə bildirən və ürəyi daim doğma Vətəni ilə bir döyünən Lütfi Zadə elm və texnologiyaların inkişafında, eləcə də mədəniyyətlərarası dialoqun qurulmasında misilsiz xidmətlərinə görə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Dostluq" ordeninə layiq görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, elm və texnologiyaların inkişafına misilsiz töhfələr vermiş məşhur alim Lütfi Zadənin anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə görkəmli elm xadimi Lütfi Zadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2021-ci il*

# "Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı"na aşağıdakı məzmunda 16-1-ci hissə əlavə edilsin:

"16-1. Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" 2014-cü il 16 aprel tarixli 152 nömrəli və "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 148 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin tənzimlənməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 avqust tarixli 1137 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 368; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384) 2.10-cu bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 9-cu hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 1-ci bəndində "Aqrolizinq" sözü "Aqroservis" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 yanvar 2021-ci il*

# Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin yaz sessiyasında ilk iclası keçirilib

Yanvarın 25-də Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisdən AZƏRTAC-a bildiriblər ki, videoformatda keçirilən iclasda Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli payız sessiyasının Vətən müharibəsi günlərinə təsadüf etdiyini və hər bir azərbaycanlının həyatında ən yaddaqalan tarixə çevrildiyini qeyd edib. Vurğulayıb ki, 44 günlük müharibədə Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi, müzəffər Azərbaycan Ordusunun rəşadəti ilə qazanılan Qələbə xalqımızın 30 illik nisgilinə son qoyub, dünya dövlətləri arasında ölkəmizin yerini və mövqeyini gücləndirib.



Sədr müavini qeyd edib ki, düşmənlə savaşda Milli Məclisin rəhbərliyi və hər bir deputatı müharibənin reallıqlarını dünyaya çatdırmaq və işğalçı tərəfin yalanlarını ifşa etmək istiqamətində ciddi fəaliyyət göstərib. Vurğulayıb ki, müharibə və pandemiya şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, payız sessiyasında Azərbaycan parlamenti öz işini ən yüksək səviyyədə davam etdirib, qarşıda duran vəzifələr layiqincə yerinə yetirilib.

Sonra Fəzail İbrahimli 2020-ci ilin payız sessiyası dövründə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsində görülən işlər barədə hesabatı təqdim edib. Bildirib ki, hesabat dövründə komitənin 7 iclası keçirilib, 9 məsələyə baxılıb. O cümlədən sessiya ərzində "Siyasi partiyalar haqqında" qanunda dəyişiklik edilməsi barədə məsələ Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birgə videokonfrans formatında üç oxunuşda müzakirə edilərək plenar iclasa tövsiyə olunub və Milli Məclisdə qəbul edilib. Komitə büdcə zərfinin müzakirəsində də fəallıq göstərib.

Hesabat dövründə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan 242 ərizə və məktuba, müxtəlif xarakterli digər sənədlərə, elektron poçt vasitəsilə gələn məktublara komitədə baxılıb və tədbir görülməsi üçün aidiyyəti qurumlara 220 məktub göndərilib. Ərizələrin əksəriyyəti ilə bağlı müvafiq icra strukturları və təşkilatlarla telefon əlaqəsi saxlanılaraq qanun çərçivəsində məsələlərin həllinə nail olunub. Vətəndaşların şifahi müraciətlərinə də həssaslıqla yanaşılıb.

Koronavirus infeksiyasına qarşı mübarizə ilə əlaqədar vətəndaş qəbulunda elektron və telefon rabitəsi vasitələrinə üstünlük verilib. Həmin qəbullarda 167 vətəndaşın müraciəti dinlənilib və zəruri tədbirlər görülüb. Sessiya ərzində ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edən komitə üzvləri parlamentlərarası əlaqələr üzrə işçi qruplarla da onlayn qaydada müxtəlif görüşlər keçiriblər.

Hesabatın müzakirəsində komitə sədrinin müavini Sahib Alıyev, deputatlar Cavanşir Paşazadə, Ceyhun Məmmədov, Azər Badamov, Anar İsgəndərov rəy və təkliflərini bildiriblər. Payız sessiyası dövründə görülmüş işlər müsbət dəyərləndirilib. Çıxışlarda vurğulanıb ki, Vətən müharibəsi günlərində ölkədəki bütün siyasi partiyalar vahid amal ətrafında birləşdi və Prezidentin siyasətini, xalqın mənafeyini dəstəklədi.

Hesabat məqbul sayıldıqdan sonra komitə sədri Fəzail İbrahimli 2021-ci ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planı barədə məlumat verib. Həm qanunvericilik fəaliyyətini, həm də müxtəlif səpkili tədbirlərin təşkilini nəzərdə tutan iş planı iclasda səslənmiş təkliflər nəzərə alınmaqla qəbul edilib.

# XİN: "Rusiya Dövlət Duması üzvünün Azərbaycan dövlətinə və xalqına qarşı qəbuledilməz ifadələr işlətməsini qəti şəkildə pisləyirik"

"Rusiya Dövlət Dumasının hakim "Vahid Rusiya" partiyasından olan üzvü, qatı ermənipərəst mövqeyi ilə tanınan Vitaliy Milonovun erməni KİV-nə müsahibəsi zamanı Azərbaycan dövlətinə və xalqına qarşı qəbuledilməz ifadələr işlətməsini qəti şəkildə pisləyirik".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın Rusiya Dövlət Dumasının üzvü V.Milonovun erməni kanalına müsahibəsinə dair şərhində yer alıb.

Leyla Abdullayeva şərhində daha sonra bildirib: "Məlum olduğu kimi, Dövlət Dumasının üzvü Vitaliy Milonov Azərbaycan Respublikasının müvafiq qanunvericiliyini pozaraq, ölkəmizin işğaldan azad olunmuş ərazisinə qeyri-qanuni səfər etdiyi üçün onun adı Azərbaycana girişi qadağan olunan xarici vətəndaşlar siyahısına əlavə edilib.

Rusiya Dövlət Dumasının üzvü Vitaliy Milonovun Azərbaycan əleyhinə atdığı növbəti təxribatçı addımı Azərbaycan və Rusiya arasında mövcud olan yüksəksəviyyəli münasibətlərə tamamilə ziddir.

Dövlət Dumasının üzvünün belə bir məsuliyyətsiz və Rusiya Federasiyasının rəsmi mövqeyinə uyğun gəlməyən davranışı ölkələrimiz arasında münasibətlərə kölgə salmaq cəhdidir. Onun bu çıxışı, həmçinin Rusiya da daxil olmaqla bölgə ölkələrinin uzun illərdir davam edən düşmənçiliyə son qoyulması və xalqlar arasında sülh, əmin-amanlıq və əməkdaşlığın təmin olunması istiqamətində atdığı addımlara xələl gətirir.

Azərbaycan və Rusiya arasında strateji xarakterli tərəfdaşlıq münasibətləri hər iki ölkə prezidentlərinin sıx təmasları ilə intensiv şəkildə inkişaf etməkdədir. Dövlət Dumasının üzvü statusundan istifadə edərək bu münasibətlərə xələl gətirmək cəhdləri qəbuledilməzdir və uğursuzluğa düçardır".

# Nazirlər Kabineti Prezidentin tapşırıqları əsasında 2021-ci il üçün prioritetləri müəyyənləşdirib



Bu gün Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetinin müşavirəsində Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı tərəfindən verilən tapşırıqların icrası və qarşıda duran vəzifələr müzakirə olunub.





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Baş nazir Əli Əsədov 2020-ci ilin əsas hadisəsi kimi xalqımızın Vətən müharibəsindəki qələbəsini vurğulayıb, gündəlikdə duran məsələlər - ötən ilin yekunları, makroiqtisadi göstəricilər, islahatların gedişi, qeyri-neft sektorundakı vəziyyət, pandemiyanın yaratdığı problemlər və onların aradan qaldırılması haqda çıxış edib.

Müşavirədə maliyyə naziri Samir Şərifov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, ƏƏSMN-in rəhbəri Sahil Babayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev məruzə ediblər.

Yekun çıxışında Baş nazir Əli Əsədov qeyd edib ki, Prezidentin tapşırığına uyğun olaraq işğaldan azad edilmiş ərazilər üzrə Strateji Fəaliyyət Planı hazırlanır və bütün ərazilərin və şəhərlərin bərpası vahid konsepsiya əsasında həyata keçiriləcəkdir.

Baş nazir Azərbaycan Respublikası Prezidentinin tapşırıqları əsasında növbəti il üçün müəyyənləşdirilmiş prioritetləri səsləndirib:

- İşğaldan azad edilmiş ərazilərin bərpası zamanı hər bir iqtisadi rayonun təbii-iqlim şəraiti və profili nəzərə alınmalıdır;
- Qarabağ bölgəsinin turizm marşrutlarının işlənib hazırlanmasına başlanılmalıdır;
- Nəzərdə tutulmuş beynəlxalq hava limanlarının, yeni dəmir yolu xətlərinin tikintisi bölgənin inkişafına əhəmiyyətli təkan verəcəkdir və o cümlədən məşğulluq məsələlərinə də xidmət edəcək;
- İşğaldan azad olunan ərazilərdə heyvandarlıq, bağçılıq, tərəvəzçilik, üzümçülük və taxılçılıq sahələri inkişaf etdirilməlidir;
- Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar işlənib hazırlanmalıdır;
- Ölkə səviyyəsində su ehtiyatları ilə bağlı problemləri həll etməklə yanaşı, işğaldan azad edilmiş torpaqların su ehtiyatlarından səmərəli istifadə məsələlərinə xüsusi diqqət yetirilməlidir. Azad edilmiş torpaqlarda ən müasir suvarma sistemləri yaradılmalıdır;
- Azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevrilməsi, həmin ərazilərdə su mənbələrindən istifadə edilərək su elektrik stansiyalarının tikintisi imkanları da nəzərdən keçirilməlidir;
- İşğaldan azad olunmuş ərazilərin bərpası məsələləri dövlət orqanlarının dövlət siyasətinin müxtəlif istiqamətləri üzrə fəaliyyətində prioritet təşkil etməli, cari və perspektiv işlər böyük qayıdış planları ilə əlaqələndirilməlidir;
- Keçmiş köçkün əhalimiz öz dədə-baba yurdlarına qaytarılmalıdır. Bu proses xüsusi proqram əsasında həyata keçirilməlidir;
- Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi ilə həyata keçirilən antikorrupsiya tədbirləri ardıcıl şəkildə davam etdirilməli və bütün dövlət qurumlarını əhatə etməlidir;
- Mərkəzi icra hakimiyyəti orqanlarının hökumətə təqdim etdiyi təkliflərin hər birində antikorrupsiya mexanizmləri və elementləri nəzərdə tutulmalı, sui-istifadə hallarına qətiyyən yol verilməməlidir;
- Cari ildə iqtisadi artımın bərpa edilməsinə nail olmalıyıq;
- İnflyasiya meyillərinin qarşısı alınmalıdır;
- Valyuta ehtiyatları səmərəli idarə edilməlidir;
- Dövlət vəsaitlərindən səmərəli istifadə olunması üçün maliyyə inzibatçılığının keyfiyyəti yüksəldilməli, maliyyə intizamı gücləndirilməli, nəzarət mexanizmləri sistemi təkmilləşdirilməlidir;
- Fiskal dayanıqlığın təmin edilməsi davamlı olaraq büdcə xərclərinin optimallaşdırılmasını, qənaət rejiminin tətbiq olunmasını, artıq və səmərəsiz xərclərin qarşısının alınmasını tələb edir;
- Dövlət satınalmalarının şəffaflığı və effektivliyi təmin edilməlidir. Şişirdilmiş qiymətlərlə satınalmaların qarşısı qətiyyətlə alınmalıdır. Tenderlərin keçirilməsinə xüsusi önəm verilməlidir.
- Özəl sektoru investisiya layihələrinin maliyyələşdirilməsinə cəlb etməliyik;
- Dövlət-özəl tərəfdaşlığının təşviqi davam etdirilməlidir;
- Prioritet sahələrə özəl investisiyaların cəlb edilməsi stimullaşdırılmalıdır;
- Dövlət investisiya layihələrinin səmərəliliyi təhlil edilməlidir;
- Antiinhisar siyasəti gücləndirilməli, haqsız rəqabətə, xüsusilə də istehlak bazarında süni qiymət artımına yol verilməməlidir;
- Kiçik və orta sahibkarlığa dəstək proqramı davam etdirilməlidir;
- İxrac imkanlarımız genişləndirilməlidir;
- Keçən il start verilmiş, lakin məlum səbəblərdən tam həcmdə tətbiq edilməmiş İcbari Tibbi Sığorta sistemi bu il 2 mərhələdə həyata keçirilməlidir;
- Postpandemiya dövrünə ciddi hazırlıq işləri görülməli, orta və uzunmüddətli hədəflərimizi bir daha dəqiqləşdirməliyik. Artıq bununla bağlı Prezident İlham Əliyev tərəfindən Nazirlər Kabinetinə müvafiq tapşırıqlar verilmişdir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2021-ci il "Nizami Gəncəvi ili" elan olunduğu üçün Mədəniyyət Nazirliyinə müvafiq fəaliyyət planı hazırlanması tapşırılıb.

# Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin yaz sessiyası üçün iş planı təsdiqlənib

Yanvarın 25-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2021-ci ilin yaz sessiyasında onlayn formatda ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclası açan komitə sədri Hicran Hüseynova həmkarlarına yaz sessiyasında uğurlar arzulayıb. O, Azərbaycan torpaqlarının 30 ildən sonra düşmən tapdağından azad olunmasına diqqət çəkib və 2020-ci ili xalqımız üçün həm gərgin, həm də qələbə müjdəli il olduğu üçün daim qürurla xatırlanacaq bir tarix adlandırıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü siyasi iradəsi və diplomatik bacarığı sayəsində qazanılan Zəfər münasibətilə deputatlara təbriklərini çatdıran H.Hüseynova rəşadətli Azərbaycan Ordusuna xoş arzularını çatdırıb, Vətənin müdafiəsi uğrunda canlarından keçən şəhidlərə Allahdan rəhmət, qazilərə şəfa diləyib.

Hicran Hüseynova bildirib ki, Vətən müharibəsi zamanı komitə üzvlərinin hər biri erməni qəsbkarları tərəfindən törədilən terror aktları zamanı zərərçəkmiş qadın və uşaqlara qarşı diqqət və qayğılarını əsirgəməyiblər. Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsi bu qanlı terror hadisələri ilə bağlı bir sıra nüfuzlu beynəlxalq təşkilatlara müraciət ünvanlayıb.

Sonra Hicran Hüseynova 2020-ci ilin payız sessiyası ərzində komitədə görülən işlərin hesabatını təqdim edib. Qeyd olunub ki, hesabat dövründə komitənin 11 iclası keçirilib və bu iclaslarda 15 məsələ müzakirə edilib. "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda, Əmək və Ailə məcəllələrində əhəmiyyətli dəyişikliklər edilib. Qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edən bu sənədlər Milli Məclisin plenar iclaslarında müzakirə olunaraq qəbul edilib.

Bu dövrdə komitədə müvafiq qurumların və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə "Ailənin sosial-psixoloji təminatı və mövcud problemlər" mövzusunda videokonfrans formatında dinləmə keçirilib.

Hicran Hüseynova vurğulayıb ki, hesabat dövründə vətəndaşlardan komitəyə 280 sənəd daxil olub, onlardan 143-ü vətəndaşlardan gələn ərizə, məktub və şikayətlərdir. Komitə sədri bildirib ki, əsasən sosial müdafiə məsələləri, aliment tələbi, işsizlik problemləri, tibbi müalicə üçün maddi yardım, ünvanlı sosial yardım və əfv məsələləri ilə bağlı olan müraciətlərin müəyyən qismi aidiyyəti qurumlara yönəldilib, bəziləri isə komitə üzvləri tərəfindən müzakirə edilərək öz həllini tapıb. Hesabat məqbul hesab edilib.

Sonra onlayn iclasda komitənin 2021-ci il yaz sessiyasının qanunvericilik işləri planı müzakirə edilib. Hicran Hüseynova yaz sessiyasında baxılması nəzərdə tutulan məsələlər barədə ətraflı məlumat verib, 2 fevral - Gənclər Günü ərəfəsində "Gənc ailələrin sosial vəziyyəti" mövzusunda geniş videokonfransın keçirilməsinin nəzərdə tutulduğunu deyib.

Komitə üzvləri Jalə Əliyeva, Rauf Əliyev, Rəşad Mahmudov, Könül Nurullayeva, Sədaqət Vəliyeva, Ramin Məmmədov, Pərvin Kərimzadə çıxış edərək hər iki məsələ barədə fikirlərini bildirib, təkliflərini səsləndiriblər.

Komitənin iş planı yekdilliklə təsdiqlənib. Onlayn iclasda komitənin digər üzvləri - Sevil Mikayılova, Tamam Cəfərova da iştirak ediblər.

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 105-ci kitabı çapdan çıxıb

“Mən bir daha demək istəyirəm ki, əsas məsələ insanların sağlamlığı, onların sosial vəziyyəti və bizim iqtisadi dayanıqlılığımızdır. Çünki əgər bu olmasa, birinci iki vəzifəni biz icra edə bilməyəcəyik. Bizim güclü iqtisadi imkanlarımız olmasa, bütün niyyətlərimiz kağızda qalacaq. Ancaq biz istəyirik bu işləri elə görək ki, ölkə inkişaf etsin, ölkənin gələcəyi qeyri-neft sektorunun inkişafı hesabına təmin edilsin”.




“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 105-ci kitabında yer alan bu fikirlər dövlət başçısının 2020-ci il avqustun 6-da ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videobağlantı formatında müşavirədə söylədiyi nitqindən götürülüb.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin növbəti kitabındakı materiallar 2020-ci ilin iyul-sentyabr aylarını əhatə edir.

Yeni kitabda Prezident İlham Əliyevin Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülər və yüksəkrütbəli hərbi nümayəndə heyətinin digər üzvləri ilə görüşünə dair materiallar toplanıb. Dövlət başçısı nümayəndə heyətinə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı məlumat verib. Həmçinin Türkiyə-Azərbaycan birgə hərbi təlimləri, iki ölkə arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq məsələlərinə toxunulub.

Bu cilddə BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində keçirilmiş yüksəksəviyyəli iclasda Prezident İlham Əliyevin həm Qoşulmama Hərəkatının sədri, həm də Azərbaycan Respublikasının Prezidenti kimi videoformatda çıxışının mətni də yer alıb.

Nəşrə dövlət başçısının Türkiyə tarixinin ən böyük təbii qaz yatağının kəşfi münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana təbrik məktubu, Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Azərbaycan Milli Ordusu və könüllülərlə birlikdə Bakının erməni və bolşevik işğalından azad olunmasının 102-ci ildönümü münasibətilə Türkiyə Prezidenti ilə telefon danışığı haqqında informasiya daxil edilib.

Oxucular Prezident İlham Əliyevin iyulun 29-da Qobustan, İsmayıllı, Balakən, Qəbələ rayonlarına və Şəki şəhərinə səfərlərinə aid materiallarla, bölgələrdə sosial-iqtisadi, mədəni infrastruktur obyektlərinin, “ASAN xidmət” Mərkəzinin açılışında, ictimaiyyət nümayəndələri ilə görüşlərində çıxışlarının mətnləri ilə də tanış ola bilərlər.

Kitabda Prezident İlham Əliyevin Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulmuş modul tipli növbəti xəstəxanasının açılış mərasimində videoformatda çıxışının mətni, yeni dərs ilinin başlanması münasibətilə müəllimlərə, tələbə və şagirdlərə müraciəti, paytaxtımızda bir sıra təhsil müəssisələri üçün inşa edilmiş yeni korpusların açılışında iştirakı və digər tədbirlər haqqında materiallar da verilib.

“Azərnəşr” tərəfindən buraxılan 105-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Məhəmməd Cavad ZƏRİF: “Ərazilərin işğalına son qoyulması bölgədə sülh, əmin-amanlıq və əməkdaşlıq üçün yaxşı fürsət yaradır”

Yanvarın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Bakıda işgüzar səfərdə olan İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zəriflə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə ikitərəfli əməkdaşlıq gündəliyi, habelə regional məsələlər ətrafında geniş müzakirələr aparılıb.



Nazir Ceyhun Bayramov ölkələrimiz arasında mövcud olan tarixi, mədəni, dini bağların ikitərəfli əməkdaşlıq münasibətlərinin əsasını təşkil etdiyini vurğulayıb. İranın hər zaman Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını dəstəklədiyi, xüsusilə 44 günlük Vətən müharibəsi zamanı İran İslam Respublikasının bütün səviyyələrdə, o cümlədən insanlar tərəfindən nümayiş etdirilən dəstəyinin Azərbaycan xalqı tərəfindən yüksək dəyərləndirildiyi qeyd olunub. Nazir Ceyhun Bayramov ölkələrimiz arasında münasibətlərin sıx olduğunu, hətta mövcud pandemiya şəraitində təmasların intensiv şəkildə davam etdirildiyini söyləyib.

Göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirən nazir Məhəmməd Cavad Zərif onilliklər sonra Azərbaycanın ərazilərini işğaldan azad etdiyi bir vaxtda Bakıda səfərdə olmaqdan məmnunluğunu ifadə edib. Ərazilərin işğalına son qoyulmasının bölgədə sülh, əmin-amanlıq və əməkdaşlıq üçün yaxşı fürsət yaratdığı və bu fürsətdən istifadə etmənin vacibliyi qeyd edilib. Azərbaycan Respublikasının Prezidenti ilə görüşə məmnunluqla istinad edən nazir Məhəmməd Cavad Zərif iki dövlətin rəhbərləri arasında çox faydalı münasibətlərin olduğunu vurğulayıb. İkitərəfli münasibətlərin inkişafı üçün heç bir məhdudiyyətin olmadığı, iqtisadiyyat, energetika, ticarət, kənd təsərrüfatı və digər sahələrdə mövcud əməkdaşlığın xalqların mənafeyinə uyğun olduğu diqqətə çatdırılıb.

Nazirlər bölgədə mövcud olan cari vəziyyəti, 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər. Bölgədə yeni əməkdaşlıq imkanlarının açıldığı qeyd olunub, o cümlədən “Şimal-Cənub” və “Cənub-Qərb” nəqliyyat və tranzit dəhlizlərinin inkişaf perspektivləri xüsusi vurğulanıb.

İqtisadiyyat, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyanın fəaliyyəti, xüsusilə Tehranda keçirilmiş sonuncu iclasın uğurlu nəticələrinə istinad olunaraq, bu istiqamətdə fəaliyyətin iki qonşu ölkə arasında iqtisadi əlaqələrin möhkəmlənməsinə xidmət etdiyi bildirilib.

Tərəflər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, eləcə də üçtərəfli və dördtərəfli regional əməkdaşlıq formatlarında təmasların davam etdirilməsi mövzuları üzrə fikir mübadiləsi aparıblar.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Səməd SEYİDOV: “Ermənilərin AŞ PA-da Azərbaycanla bağlı əsassız iddiaları tamamilə iflasa uğradı”

Ermənilər AŞ PA-nın qış sessiyasına yeni təxribatlarla gəlmişdilər. Hətta sessiyanın gündəliyi ilə bağlı təxribatlara cəhd etmişdilər. Onlar Azərbaycanla bağlı birbaşa məsələ qaldırmışdılar, ancaq bu cəhdləri tamamilə iflasa uğradı. Əvvəlcə AŞ PA-nın Bürosunda, sonra isə Parlament Assambleyasında onların irəli sürdükləri məsələ heç müzakirəyə belə təqdim edilmədi.

Bu fikirləri Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində deyib.

Səməd Seyidov bildirib ki, Ermənistan nümayəndə heyətinin üzvləri hələ də təxribatlardan əl çəkmirlər.

“Bizim nümayəndə heyətimiz qürurludur. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər ordumuzun torpaqlarımızı işğaldan azad etməsindən sonra ilk sessiyadır ki, iştirak edirik. Qalib ölkənin nümayəndə heyəti kimi sessiyada qürurla iştirak edirik. Bu hissi bizə yaşadanlara təşəkkür edirik”, - deyə o, qeyd edib.

Səməd Seyidov qeyd edib ki, nümayəndə heyətimiz dünya ictimaiyyətinə, AŞ PA parlamentarilərinə həqiqətləri çatdırır, konkret olaraq faktları göstərir. Ona görə də erməni tərəfi başa düşməlidir ki, təkcə Azərbaycanla bağlı deyil, ümumiyyətlə, beynəlxalq səviyyədə yürütdükləri siyasət iflasa uğrayır. Onlar bu barədə nə qədər tez düşünsələr, bir o qədər də tez sabitlik və böhrandan çıxmaq haqqında düşünməyə vaxtları olacaq. Əks-təqdirdə gərginlik, mövcud vəziyyət Ermənistanı daha dərin böhrana salacaq.

Ermənilər başa düşmürlər ki, Azərbaycan öz torpaqlarında müharibə aparıb. AŞ PA-nın Bürosu, eləcə də Parlament Assambleyası yaxşı bilir ki, Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Bir qarış belə başqa torpaqlara, Ermənistan ərazisinə müdaxilə etməyib. Ermənistan nümayəndə heyətinin Azərbaycanla bağlı səsləndirdiyi böhtanlar hamıya məlumdur. Hər kəs bilir ki, Azərbaycan BMT-nin sənədlərini, elə Avropa Şurasının özünün 1416 saylı qətnaməsini yerinə yetirib, beynəlxalq qanunu regiona gətirib. Beynəlxalq qanuna qarşı çıxan bir ölkə var ki, o da Ermənistandır. Buradakı parlamentarilər beynəlxalq qanunu hansı tərəfə çəksələr də, ona qarşı çıxa bilməzlər. Ona görə də erməni nümayəndələrin cəhdlərini rədd etmək normaldır. Həmçinin Ermənistanın destruktiv siyasəti artıq hamıya bəllidir. Bizim torpaqlarımız işğal altında olanda da bizi ittiham edirdilər. İndi uduzanda, torpaqlarımızdan qaçanda da bizi ittiham edirlər. Artıq yetər. Bizi yox, özlərini ittiham etməlidirlər. İşğal siyasətləri onları bu böhrana salıb. Təbiidir ki, AŞ PA deputatları bunu yaxşı başa düşür və dərk edirlər.

Azərbaycan nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, ermənilərin müharibə əsirləri ilə bağlı irəli sürdükləri əsassız iddialar tamamilə iflasa uğradı. Bu iddialara heç baxılmadı, çünki belə məsələlərlə bağlı qurumun xüsusi məruzəçisi var. O məruzəçi belə məsələlərə ətraflı şəkildə baxmaq imkanına malikdir. Ancaq unudulmamalıdır ki, ötən il noyabrın 10-da hərbi əməliyyatların dayandırılması ilə bağlı razılıq əldə edilib. Ermənistan isə bu razılaşmadan bir ay sonra - dekabrın 15-də əsir kimi qələmə verdiyi hərbi diversantları Azərbaycanın nəzarətində olan ərazilərə göndərib. Ermənistan hərbi əməliyyatların dayandırılmasından sonra yenidən əsgərləri Azərbaycan ərazilərinə göndərir. Bu faktı gizlətmək mümkün deyil. Ermənilərin bu diversantları müharibə əsirləri kimi təqdim etmək cəhdləri alınmayacaq, çünki onlar cinayətkarlardır. Azərbaycan beynəlxalq konvensiyalardan irəli gələn addımları atır və atacaq.

* * *

“Bu gün burada danışmaq böyük şərəfdir. 20 ildir bu təşkilatda Azərbaycan nümayəndə heyəti ilə ölkəmizi təmsil edirik. 20 il əvvəl Azərbaycan bu təşkilata üzv olanda böyük ağrıları var idi, torpaqları işğal altında idi. Bu illər ərzində burada ədalətsizliklərlə üzləşmişik, onun şahidi olmuşuq. Bu illər ərzində ərazilərimizlə bağlı ədalətin bərpa edilməsinə çalışmışıq. Həmişə Avropa Şurasına böyük ağrılarla gəlmişik. Bu gün son dərəcə qürurluyam, əraziləri ilə bağlı ədaləti, ərazi bütövlüyünü bərpa edən ölkənin nümayəndəsi kimi fəxr edirəm”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri ölkəmizin AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun qış sessiyası çərçivəsində qurumun monitorinq prosedurlarının inkişafına dair müzakirədə bəzi deputatların qərəzli çıxışlarına qarşı səsləndirib.

Qeyd edib ki, Monitorinq Komitəsinin rolu getdikcə daha vacib olur.

“Bu gün artıq müharibə haqqında düşünməməliyik. Azərbaycan və Ermənistan arasında sülh razılığı imzalanıb. İndi etimadın bərpası haqqında düşünməliyik. Yeni atmosfera yaratmaq haqqında düşünməliyik. Regionumuza Avropa Şurasının dəyərlərini gətirməliyik.

Ancaq təəssüf olsun ki, bəzi qrupların gərginliyi hələ də səngiməyib. Onlar vəziyyəti gərginləşdirməyə çalışırlar. Mövcud sülh prosesinə maneələr yaratmağa çalışırlar. Bu kontekstdə düşünürəm ki, cənab Jensen tərəfindən təqdim edilən münaqişə ilə bağlı məruzə müəyyən tarazlığa xidmət edir. Bu, çox vacibdir. AŞ PA-dakı həmkarlarımdan, dostlarımdan xahiş edirəm ki, belə tarazlığı qoruyub saxlasınlar. Tərəfkeşlikdən yayınsınlar. Yalnız tarazlığa riayət etməklə iki xalq arasında körpü yaratmaq olar”,- deyə S. Seyidov vurğulayıb.

# MEDİA silsilə tədbirlərinə ADA Universiteti ilə başlayıb

Bu ay dövlət başçısının fərmanı ilə yaradılan Medianın İnkişafı Agentliyi (MEDİA) 2021-ci il üçün nəzərdə tutduğu silsilə tədbirlərin həyata keçirilməsini ADA Universiteti ilə birgə təşkil edilən “Media və kommunikasiya siyasəti medianın gözü ilə” mövzusunda seminarlarla başlayıb.

ADA-dan AZƏRTAC-a bildirilib ki, universitetin İxtisasartırma Proqramının mütəxəssisləri tərəfindən aparılan seminarlarda dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətləri rəhbərləri, ictimaiyyətlə əlaqələr və mətbuatla iş üzrə məsul əməkdaşları iştirak edirlər. Seminarlarda məqsəd dövlət və ictimai sektor qurumlarının media subyektləri ilə əməkdaşlığının genişləndirilməsi və qarşılıqlı kommunikasiya əlaqələrinin təkmilləşdirilməsi, eləcə də müasir media mühitində ictimaiyyəti məlumatlandırma mexanizmlərinin daha səmərəli qurulmasıdır.





Seminarda ADA Universitetinin media sahəsi üzrə yerli və xarici tədqiqatçıları ilə yanaşı, biznes sektorunun mütəxəssisləri və ölkənin multimedia platformasının aparıcı üzvləri ilə panel müzakirələr təşkil edilib. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev seminar iştirakçıları qarşısında ustad dərsi ilə çıxış edib. İnteraktiv müzakirələr zamanı mətbuat xidməti rəhbərləri “İctimai əlaqələr şöbəsinin təşkilatdakı məqsədi və rolu”, “Kommunikasiya planı və gündəlik media təmasları: proaktiv və reaktiv strategiyalar”, “Böhran vəziyyətlərində kommunikasiyanın qurulması” kimi mövzularda fikir mübadiləsinə qoşularaq, müasir media mühitindəki çağırışlara yeni həll yolları axtarıblar. Seminar digər mühazirəçilərin çıxışları ilə sabah da davam etdiriləcək.

Xatırladaq ki, Medianın İnkişafı Agentliyi Azərbaycan Respublikası Prezidenti tərəfindən medianın inkişafının dəstəklənməsi, bu sahədə təsisat quruculuğu işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə yaradılıb.

# Azərbaycan Gimnastika Federasiyasının 11-ci ümumi yığıncağı və İcra Komitəsinin 37-ci iclası keçirilib

## Mehriban Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib

Yanvarın 25-də Milli Gimnastika Arenasında Azərbaycan Gimnastika Federasiyasının (AGF) 11-ci ümumi yığıncağı və İcra Komitəsinin 37-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, federasiyanın Nizamnaməsinə əsasən, builki yığıncaq hesabat-seçki xarakteri daşıyıb.






Gündəlikdə duran məsələlərin müzakirəsindən əvvəl gimnastika ailəsinin ötən beş ildə dünyasını dəyişən üzvlərinin və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan Gimnastika Federasiyasının son beş ildəki fəaliyyətinə dair hesabat məruzəsi ilə çıxış edən federasiyanın vitse-prezidenti Altay Həsənov Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında, o cümlədən mötəbər yarışlarda gimnastika üzrə əldə olunan nailiyyətlər, “Tokio-2020” Yay Olimpiya Oyunlarına qazanılan lisenziyalar, Bakıda təşkil olunan beynəlxalq yarış və tədbirlər, gimnastikanın yeni növlərinin inkişafı və AGF-in beynəlxalq arenadakı uğurları barədə məlumat verib.

Hesabatın sonunda Altay Həsənov görülən bütün işlərin, əldə olunan nailiyyətlərin ölkəmizin Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın rəhbərliyi və müdrik tövsiyələrinin bəhrəsi olduğunu vurğulayıb və Mehriban xanıma gimnastika ictimaiyyəti adından təşəkkür edib.

Sonra federasiyanın baş mühasibi Viktoriya Abuşova 2020-ci il üzrə maliyyə hesabatını təqdim edib.

Hesabatların təsdiqindən sonra İcra Komitəsinə seçkilər keçirilib. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva yenidən Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib. Səsvermənin yekunlarına əsasən, Mehriban Əliyeva növbəti beş il müddətində federasiyaya rəhbərlik edəcək.

Səsvermə nəticəsində Altay Həsənov federasiyanın vitse-prezidenti seçilib. Həmçinin Milli Məclisin deputatı Rauf Əliyev, Heydər Əliyev adına İdman-Konsert Kompleksinin direktoru Rafiq Behbudov və bədii gimnastika üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Mariana Vasilyeva federasiyanın İcra Komitəsinin üzvü seçiliblər.

Səsvermə ilk dəfə olaraq elektron formatda əsas etibarı ilə yarışlar zamanı xalların hesablanmasında ixtisaslaşan Azərbaycan brendi olan “SmartScoring”in dəstəyi ilə təşkil edilib.

Sonda 2020-ci ildə mötəbər yarışlarda nəticə göstərmiş idmançı və məşqçilərə xatirə medalları təqdim olunub.

Ümumi yığıncaqdan sonra AGF-in yenidən seçilmiş rəhbərliyi İcra Komitəsinin 2021-ci ilin ilk, ümumiyyətlə isə, 37-ci iclasını keçirib. İclasda son üç ildə AGF-in baş katibi olmuş Nurlana Məmmədzadə yenidən bu vəzifəyə təyin olunub. Federasiyanın İntizam Komitəsinin üzvləri Nazim Rəcəbov və Aytac Qasımova müvafiq olaraq həmin komissiyanın sədri və üzvlüyünə yenidən təyinat alıblar. Namiq Əliyevin isə ilk dəfə olaraq həmin komissiyanın üzvü olması qərara alınıb.

Elşad Nərimanov AGF-in Veteranlar Şurasının sədri seçilib. Uzun illər həmin şuranın sədri olmuş Arif Quliyev isə fəxri prezident seçilib.

Müzakirələrdən sonra gimnastika növləri üzrə baş məşqçilərin hesabatı, AGF-in bir neçə qaydalarına dəyişikliklər təsdiq olunub. Bundan əlavə, 2021-ci ildə yığma komandalara cəlb olunmuş gimnastların təmsil etdikləri klub, idman təşkilatları və şəxsi məşqçilərinin mükafatlandırılması üzrə siyahı təsdiqlənib.

# “AzerGold” QSC-də ötən ilin yekunlarına dair onlayn müşavirə keçirilib

“AzerGold” Qapalı Səhmdar Cəmiyyətində (QSC) ötən ilin yekunları və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş onlayn müşavirə keçirilib.





Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, müşavirədə çıxış edən “AzerGold” QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov cəmiyyət tərəfindən 2020-ci ilin fəaliyyət planının uğurla yerinə yetirildiyini, pandemiya şəraitinin çətinliklərinə baxmayaraq, ötən il qarşıya qoyulan vəzifələrin tam icra edildiyini bildirib.

Ötən il cəmiyyətin həm istehsalat, həm də hasilat göstəriciləri plandan daha artıq olmaqla, 2019-cu ilin nəticələrini üstələyib. Beləliklə, “AzerGold” QSC-nin hasil etdiyi qızıl və gümüşün dünya bazarına ixracı nəticəsində il ərzində ölkə iqtisadiyyatına ümumilikdə 186.5 milyon manat həcmində vəsait daxil olub.

Müşavirədə “AzerGold”un ötən ildə də regionlarda yeni mədənlərin işə salınması, iqtisadi səmərəliyinin artırılması istiqamətində fəaliyyətini davam etdirdiyi vurğulanıb. Yeni yataqların işlənməsi, eləcə də əldə olunan müsbət iqtisadi artım göstəricilərinin daha yüksək dinamika ilə davamlılığının təmin edilməsi məqsədilə cəmiyyət tərəfindən ilk dəfə tədavülə buraxılan 20 milyon ABŞ dolları həcmində istiqrazların emissiyası uğurla həyata keçirilib.

Bununla yanaşı, cəmiyyət tərəfindən kəşf olunmuş “Ağyoxuş-1” yatağı 30 noyabr tarixində istismara verilərək yeni emal zavodu və müvafiq infrastruktur qurulmadan istismarına və orada hasil edilən suxurların “Çovdar” Filiz Emalı Sahəsində (ÇFES) emal edilməsinə başlanılıb. Bununla da sözügedən emal sahəsinin bazasında gələcəkdə ətrafdakı yeni yataqların istismara verilməsi ilə genişləndiriləcək “Çovdar” İnteqrə olunmuş Regional Emal Sahəsinin qurulması sahəsində ilk addımın atıldığı qeyd edilib.

İdarə Heyətinin sədri cəmiyyət tərəfindən yeni yataqların istismarına hazırlıq çərçivəsində ötən il intensiv kəşfiyyat və tədqiqat işlərinin qrafik üzrə davam etdirildiyini bildirib. Hesabat dövründə cəmiyyətin 2020-ci il üçün fəaliyyət planına uyğun olaraq, perspektiv sahələrdə yeni yataqların istismara verilməsi istiqamətində 75778 metr dərinliyində buruq-qazma işləri icra edilib.

Müşavirədə “AzerGold”un cari ildə də regionlarda yeni mədənlərin işə salınması istiqamətində fəaliyyətini davam etdirəcəyi vurğulanıb. Təsdiqlənmiş plan əsasında 2021-2027-ci illər ərzində müvafiq olaraq “Ağyoxuş” yatağının növbəti mərhələlərinin (“Ağyoxuş-2”, “Ağyoxuş-3”), “Mərəh”, “Narçala”, həmçinin “Çovdar” yatağının sulfid mərhələsi üzrə istismarı, eləcə də “Tülallar”, “Filizçay”,” Qaradağ”, “Xarxar”, “Mazımçay” və digər yataqların istifadəyə verilməsi nəticəsində ölkə iqtisadiyyatına milyardla manat vəsaitin cəlb ediləcəyi, ümumilikdə, minlərlə yeni iş yerinin açılacağı, bütün bunların regionların sosial-iqtisadi inkişafına müsbət təsir edəcəyi vurğulanıb. Bildirilib ki, bu layihələrin icrası ilə Qapalı Səhmdar Cəmiyyətin genişmiqyaslı regional mədən şirkətinə, ölkənin ən böyük qeyri-neft ixracatçısına çevrilməsi əsas hədəf kimi qarşıya qoyulub.

Zakir İbrahimov cənab Prezident İlham Əliyevin 1 sentyabr 2020-ci il tarixli 2245 nömrəli Sərəncamı ilə cəmiyyətin fəaliyyət sahələrinə ölkə ərazisində qara metal filizi yataqlarının tədqiqini, kəşfiyyatının, işlənilməsi və idarə olunmasının həvalə edilməsinin də dövlət başçısı tərəfindən şirkətin fəaliyyətinə göstərilən yüksək etimadın nəticəsi olduğunu diqqətə çatdırıb.

Tədbirin davamında bu istiqamətdə görülən və planlaşdırılan işlər haqqında da geniş müzakirə aparılaraq cəmiyyətin Müşahidə Şurasına təqdim edilməsi məqsədilə 2021-ci il üzrə ümumi fəaliyyət planı təsdiq edilib. Müzakirələrin sonunda qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

*Azərbaycan Respublikası Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə videokonfrans rejimində geniş kollegiya iclası keçirilib.*





# Baş Prokurorluqda 2020-ci ildə görülmüş işlərə həsr olunmuş geniş kollegiya iclası keçirilib

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda prokurorluq orqanları tərəfindən 2020-ci ildə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələr müzakirə olunub.

İclas iştirakçıları əvvəlcə Baş Prokurorluğun binasının foyesində Ümummilli Lider, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ölkəmizdə məhkəmə-hüquq islahatlarının banisi Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyublar.

Kollegiya iclasında Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib, qazilərimizə şəfa dilənib.

İclasda çıxış edən baş prokuror Kamran Əliyev diqqətə çatdırıb ki, xilaskarlıqdan qalibiyyətə yüksələn zəfər salnaməsinin memarı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik siyasi kursun Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində uzun illərdən sonra ölkəmiz ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. Qırx dörd günlük haqq savaşında qazanılan möhtəşəm Qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, ordumuzun qüdrətini və xalqımızın milli birliyini bir daha bütün dünyaya nümayiş etdirib.

Qeyd olunub ki, dövlət başçısının aparıcı ölkələrin televiziya kanallarına verdiyi müsahibələri Dağlıq Qarabağ münaqişəsinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın təcavüzkarlıq siyasətinin, hərbi təxribatlarının ifşası və beynəlxalq müstəvidə məsələyə münasibətin araşdırılması, tarixi, hüquqi-siyasi aspektlərinin təhlili baxımından xüsusi əhəmiyyət kəsb etməklə informasiya cəbhəsində də qələbəmizi şərtləndirib.

Döyüş meydanında qazanılmış Qələbənin diplomatik müstəvidə davam etdirilməsi ilə tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılan Zəfərin təntənəsi olaraq dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşaya və azad olunmuş digər rayonlara səfərləri, orada Azərbaycanın üçrəngli bayrağının ucaldılması, Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda beynəlxalq hava limanının təməlinin qoyulması, həmin bölgələrdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, quruculuq-bərpa və abadlıq işlərinin aparılması məqsədilə Qarabağ Dirçəliş Fondunun yaradılması doğma torpaqlarımıza "Böyük Qayıdış"ın rəmzi ifadəsi hesab edilib.

Xüsusi vurğulanıb ki, Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimizin ailələri, müharibə əlilləri və onların ailə üzvləri ali dövlət qayğısı ilə əhatə olunmaqla maddi-sosial problemlərinin aradan qaldırılması istiqamətində yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması müstəsna əhəmiyyətə malik olub.

Bildirilib ki, 2020-ci ildə yeni növ koronavirus (COVID-19) pandemiyasının yaratdığı çətinliklərə və iqtisadi məhdudiyyətlərə baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi hərtərəfli düşünülmüş müdrik dövlətçilik siyasəti və səriştəli idarəetmə qabiliyyəti nəticəsində ölkə həyatının bütün sahələrində inkişaf tempi qorunub saxlanılıb, iqtisadi təhlükəsizliyin və əhalinin maddi rifah halının yüksəldilməsi istiqamətində əməli addımlar atılmış, regionda sabitliyə və dünyanın enerji təhlükəsizliyinə töhfə verəcək "Cənub qaz dəhlizi" ilə Azərbaycan qazının Avropa ölkələrinə tədarükü ölkəmizin geostrateji mövqeyini daha da gücləndirib.

Həyata keçirilən islahatların mötəbər beynəlxalq təşkilatların hesabatlarında müsbət qiymətləndirildiyi, o cümlədən Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın reytinqinin artaraq 190 ölkə arasında 28-ci yerdə qərarlaşması və 10 ən islahatçı ölkə sırasına daxil edilməsi qazanılmış uğurların bariz göstəricisi olduğu vurğulanıb.

Bildirilib ki, çoxsaylı dövlətlərin böhran təhlükəsi ilə qarşılaşdığı bir zamanda dövlət başçısı İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı nəticəsində həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə pandemiyanın fəsadları minimuma endirilməklə sosial cəhətdən həssas əhaliyə davamlı dəstək və iqtisadi dayanıqlılığı təmin olunub, həmçinin mövcud şəraitdə idarəetmənin və kommunikasiyanın düzgün qurulması, virusun geniş yayılmasının qarşısının alınması üçün Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən zəruri tədbirlər görülüb.

Dövlət başçısının rəhbərliyi ilə görülən işlər, milli mənafeyimizin ən yüksək səviyyədə qorunmaqla dönməz sabitliyə və təhlükəsizliyə, davamlı inkişafa, etibarlı sosial rifaha, tərəqqiyə və firavan gələcəyə yönəlmiş fəaliyyəti xalqımız tərəfindən daim dəstəklənib.

Uğurla yola saldığımız ilin mühüm əhəmiyyətə malik olan ictimai-siyasi tədbirinin-fevral ayında azad, ədalətli və şəffaf parlament seçkilərinin keçirilməsini diqqətə çatdıran baş prokuror xalqımızın özünü təsdiq etmiş iqtisadi və sosial kursun davam etməsinə ümummilli etimad və dəstəyini ifadə etdiyini qeyd edib.

Xüsusi vurğulanıb ki, ölkəmizin həm regional, həm də dünya miqyasında artan rolunun və bilavasitə, Prezident İlham Əliyevə göstərilən yüksək diqqətin və hörmətin bariz nümunəsi olaraq Qoşulmama Hərəkatının sədri statusunda təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsi, həmçinin Azərbaycanın "Böyük İyirmiliyin" (G20) üzvü olan ölkələrin sammitinə dəvət olunması aparılan siyasi kursun alternativsizliyini bir daha nümayiş etdirib.

Məruzədə qeyd edilib ki, 2020-ci il Azərbaycan Respublikası Prokurorluq orqanları üçün də uğurlu hesabat dövrü olub. Ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlər həyata keçirilib.

Prokurorluq orqanlarının fəaliyyətinin dövlət səviyyəsində yüksək qiymətləndirildiyi xüsusi vurğulanaraq, Prezident İlham Əliyevin sərəncamı ilə xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə prokurorluq orqanlarının 38 əməkdaşının yüksək dövlət mükafatları ilə təltif edilməsinin kollektivin böyük sevincinə səbəb olduğu qeyd edilib.

Kollegiya iclasında bildirilib ki, Vətən müharibəsinin gedişində cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları səlahiyyətləri daxilində üzərlərinə düşən vəzifələri uğurla yerinə yetirməklə qanunsuz erməni birləşmələrinin törətdikləri hər bir cinayət faktı üzrə döyüş əməliyyatlarının aparıldığı şəraitdə zəruri istintaq hərəkətləri həyata keçirib. Xain düşmənin beynəlxalq konvensiyalarda təsbit olunan müharibə qaydalarını kobud şəkildə pozaraq cəbhə zonasından kənarda yerləşən şəhərlərimizi və kəndlərimizi, infrastruktur obyektlərini raket zərbələri, o cümlədən qadağan olunan silahlarla atəşə məruz qoyması, namərd hücumlarla onlarca dinc sakinin qətlə yetirilməsi ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmaqla intensiv istintaq-əməliyyat tədbirləri aparılıb.

Qeyd edilib ki, ötən il sentyabrın 27-dən Ermənistan silahlı qüvvələri tərəfindən aparılan təcavüzkar müharibə, onun gedişində törədilən digər xarakterli cinayətlərlə bağlı Baş Prokurorluqda 62 cinayət işi başlanıb. Həmin işlər üzrə 17 muzdlu döyüşçü və Ermənistan Respublikasının 4 vətəndaşı olmaqla cəmi 21 şəxs barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarları çıxarılaraq axtarış elan olunub.

Məlumat verilib ki, Ermənistan silahlı birləşmələrinin dinc əhalini atəşə tutması nəticəsində 93 nəfər, o cümlədən 12 azyaşlı və 27 qadın qətlə yetirilib, 407 nəfər, o cümlədən 50 azyaşlı və 101 qadın müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının rayon və şəhərlərinin ərazisinə ümumilikdə 30 minə yaxın mərmi və 227 raket atılıb, çoxsaylı əmlaka ziyan vurulub, fərdi evlər, yardımçı tikililər, çoxmənzilli yaşayış binaları, qeyri-yaşayış sahələri, ayrı-ayrı dövlət qurumlarına məxsus inzibati binalar, dini obyekt, məscid, kilsə və qəbiristanlıqlar dağıdılıb.

Erməni vəhşiliklərinin dünya dövlətlərinin hüquq mühafizə orqanlarına və aidiyyəti beynəlxalq təşkilatların diqqətinə çatdırılması məqsədilə BMT-nin İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, Avropa Şurasının İnsan Hüquqlarının Müdafiəsi üzrə Komissarına, MDB ölkələrinin üzv dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurası və digər beynəlxalq təşkilatlara, eləcə də 25 ölkənin baş prokurorlarına və ədliyyə nazirlərinə Ermənistanın törətdiyi cinayətlər haqqında məktublar, 37 xarici dövlətin səlahiyyətli orqanına hüquqi yardım göstərilməsinə dair 46 vəsatət göndərilib.

Qeyd edilib ki, dövlət başçısının "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərmanından və bu istiqamətdə tapşırıqlarından irəli gələn vəzifələrin icrasının təmin olunması məqsədilə Baş Prokurorluğun İstintaq idarəsində başlanmış cinayət işləri üzrə erməni vandalizmi nəticəsində məqsədli şəkildə talan edilmiş, dağıdılmış yaşayış məntəqələri, həmçinin tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın, eləcə də atəşkəsin davam etdiyi dövrdə əldən çıxmış faydanın məbləğinin müəyyənləşdirilməsi məqsədilə prokurorluq orqanları tərəfindən digər qurumlarla əlaqəli şəkildə müvafiq işlər davam etdirilir.

Eyni zamanda işğal altındakı ərazilərdə xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı cinayət işləri üzrə, həmçinin əzəli torpaqlarımızda qanunsuz məskunlaşmanı həyata keçirən bütün təqsirli şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirlərinin aparılması diqqətə çatdırılıb.

Bununla yanaşı, prokurorluq orqanları tərəfindən Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə yaradılmış işğal nəticəsində vurulmuş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması üzrə Dövlət Komissiyasının və işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının fəaliyyətində yaxından iştirakın təmin edildiyi qeyd olunub.

Kollegiya iclasında ötən ilin prokurorluq orqanları üçün də əlamətdar olduğunu qeyd edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2020-ci il mayın 1-də baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul edilərkən dövlət başçısının verdiyi göstəriş və tapşırıqların prokurorluq orqanlarında genişmiqyaslı islahatların aparılmasını labüd etdiyini diqqətə çatdırıb. Bununla əlaqədar qısa müddətdə prokurorluğun cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması, işin çevikliyinin və səmərəliliyinin artırılması istiqamətində struktur və kadr islahatlarının aparıldığı, prokurorluğun fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın yeniləndiyi bildirilib.

Məlumat verilib ki, hesabat dövründə digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq, əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə qeydə alınmış 26 min 4 cinayətin 84,3 faizinin açılması təmin olunub. Bu cinayətlərin 94,5 faizi prokurorluq və daxili işlər orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər təşkil edib. Onların da açılma faizi 85,5 faiz təşkil edib.

Baş prokuror qeyd edib ki, 2019-cu illə müqayisədə daxili işlər və prokurorluq orqanları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində qəsdən sağlamlığa az ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, mənimsəmə və israf etmə, eləcə də yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, o cümlədən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin, vəzifə cinayətlərinin sayı azalıb. Ötən illərdən bağlı qalmış 310 cinayətin açılması təmin edilib, 254 cinayətkar qrup zərərsizləşdirilib.

Hesabat dövründə prokurorluq orqanları tərəfindən 1045 şəxs barəsində 795 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq məhkəmələrə göndərilib. 2019-cu illə müqayisədə 34 hadisə artmaqla 193 qəsdən adamöldürmə cinayəti qeydə alınıb ki, onların 94 faizinin üstü açılıb.

Bu müddətdə prokurorluq və müvafiq icra hakimiyyəti orqanlarının istintaq qurumlarında qeydə alınmış cinayət işləri üzrə ümumilikdə 171 milyon 628 min 342 manat məbləğində maddi ziyanın ödənilməsinə nail olunub.

Kamran Əliyev vurğulayıb ki, korrupsiyaya və rüşvətxorluğa qarşı Prezident İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan barışmaz mübarizə ötən dövrlərdə olduğu kimi davam etdirilib. Bu sahədə həyata keçirilmiş kompleks tədbirlər ölkəmizə dünyada ən islahatçı ölkə imicini qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin etməyə imkan verib.

Azərbaycanın dövlət idarəçiliyində şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi islahatların aparıcı beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirildiyi, o cümlədən "Beynəlxalq Şəffaflıq" Təşkilatının Korrupsiya Qavrama İndeksi üzrə sonuncu hesabatında ölkəmizin 30 balla 26 pillə irəliləməsi diqqətə çatdırılıb. Korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış aparıcı beynəlxalq təşkilatlar hesab edilən BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa Şurasının Korrupsiyaya Qarşı Dövlətlər Qrupu (GRECO), MONEYVAL Komitəsi və digər ixtisaslaşmış nüfuzlu qurumların da əldə edilən nailiyyətləri yüksək qiymətləndirdikləri bildirilib.

Hesabat dövründə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən 281 vəzifəli şəxs barəsində 180 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib. Həmçinin 62 milyon 436 min manat məbləğində ziyan ödənilməklə 5 milyon 115 min manat dəyərində əmlak üzərinə həbs qoyulub.

Bildirilib ki, 2020-ci ildə 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi vasitəsilə korrupsiya hüquqpozmaları barədə Baş İdarəyə daxil olmuş müraciətlərin 47-si üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb. Digər müraciətlər üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlər görülüb.

Bu müddətdə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməliyyat qurumları vəzifələrini uğurla icra edib. Keçirilən əməliyyat tədbirləri nəticəsində 39 şəxs cinayət başında yaxalanıb. Əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə olunan məlumatlar əsasında 76 cinayət işi başlanıb.

Kamran Əliyev bildirib ki, hesabat dövründə respublikanın paytaxtında və digər şəhər və rayonlarda koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması tədbirlərinə zidd olaraq, qanunsuz hərəkətlərə yol vermiş şəxslər barəsində, o cümlədən aztəminatlı ailələrə ayrılmış yardım paylarının mənimsənilməsi, təyinatından kənar və ya ədalətsiz bölüşdürülməsi, yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən xüsusi karantin rejimində sərbəst hərəkət hüququ verən 800-dən çox arayışın verilməsi faktları üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə 415 cinayət işi başlanıb. Bu işlərdən 334-ü karantin rejimimin sərtləşdirilməsi ilə əlaqədar prokuror nəzarətinin gücləndirilməsi tədbirlərindən sonra başlanıb.

Həmçinin epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimi qaydalarını pozan şəxslərə qarşı Baş Prokurorluğun yeni yaradılmış cinayət təqibindən kənar icraatlar idarəsi və müvafiq rayon prokurorluqları tərəfindən inzibati xətalar haqqında işlər üzrə icraatlar başlanmaqla, qanunsuz olaraq toplantılar keçirmə, qoruyucu vasitələrdən istifadə etməmə, 8103 qısa SMS xidmətinə müraciət etmədən icazəsiz yaşayış yerlərini tərk etmə və digər pozuntulara yol verdiklərinə görə rayon (şəhər) məhkəmələrinin qərarları ilə 45 nəfər barəsində inzibati həbs və cərimə tənbehləri seçilib.

Eyni zamanda sosial şəbəkələrdə dövlət orqanlarının həyata keçirdiyi tədbirlərə kölgə salan 23 təxribat xarakterli informasiyanın yayılması faktları araşdırılmaqla, həqiqəti əks etdirməyən həmin məlumatları ictimailəşdirən şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb, 2 şəxsə qanun pozuntusuna yol verməkdən çəkindirmək haqqında xəbərdarlıq edilib.

Xüsusi vurğulanıb ki, hesabat dövründə Respublika Hərbi Prokurorluğu orqanları da fəaliyyətini müharibə dövrünün tələblərinə uyğun qurmaqla Ermənistan hərbi birləşmələrinin hərbi qulluqçularımıza qarşı törətdikləri cinayət faktlarının araşdırılmasında öz üzərlərinə düşən vəzifələri layiqincə icra edib. Eləcə də cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınması, ordu quruculuğuna mənfi təsir edə biləcək nöqsanların və qanun pozuntularının vaxtında aşkarlanaraq aradan qaldırılması təmin edilib. 2019-cu illə müqayisədə ötən il törədilmiş hərbi xidmət əleyhinə cinayətlər və qeyri-hərbi cinayətlər əhəmiyyətli dərəcədə azalıb.

Hesabat dövründə hərbi prokurorluq orqanları tərəfindən 1182 cinayət hadisəsi qeydə alınıb ki, onlardan 296-sı korrupsiya cinayətləri ilə bağlı olub. Həmin dövrdə hərbi prokurorluq orqanları tərəfindən korrupsiya cinayətləri üzrə 90 şəxs barəsində 61 cinayət işinin istintaqı yekunlaşdırılaraq baxılması üçün aidiyyəti üzrə hərbi məhkəmələrə göndərilib.

Diqqətə çatdırılıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 2021-ci il yanvarın 1-dək ümumilikdə 297 şəxsin Azərbaycan xalqına qarşı müharibə və digər cinayətləri törətmələri sübuta yetirildiyindən, onlar barəsində təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul olunub. Həmin şəxslərin barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycandakı Milli Mərkəzi Bürosuna və Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilib.

Qeyd edilib ki, hazırda Azərbaycan Respublikası Hərbi Prokurorluğunda istintaq edilən cinayət işi üzrə müəyyənləşdirilmiş beş əsas istiqamət - Azərbaycan xalqına qarşı soyqırımı-deportasiya, əsir düşmüş və girov götürülmüş şəxslərə qarşı işgəncə, terror, dövlətə və vətəndaşlara vurulmuş ziyan, müasir dövrdə düşmənlə təmas xəttində milli ədavət və düşmənçilik niyyəti ilə törədilmiş xüsusilə ağır cinayətlər kimi istiqamətlər üzrə istintaq və digər prosessual hərəkətlərin icrası, həmin cinayətləri törətmiş şəxslərin anket məlumatlarının müəyyən edilməsi üçün zəruri tədbirlərin görülməsi davam etdirilir. Həmçinin barələrində axtarış elan olunmuş şəxslərin məsuliyyətə cəlb olunmaları üçün digər zəruri işlər görülür.

2020-ci ildə Naxçıvan Muxtar Respublikası prokurorluğu tərəfindən cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində müsbət göstəricilər əldə edilib. İstintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarət artırılmış, vətəndaşların müraciətlərinə baxılması, onların problemlərinin həll olunması diqqət mərkəzində saxlanıb.

Hesabat dövründə istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 853 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokurorlarının iştirakı ilə ötən il ərzində birinci instansiya məhkəmələrində 10 min 849 şəxs barəsində 9455, apellyasiya instansiyası məhkəmələrində 3292 şəxs barəsində 2949, kassasiya instansiyası məhkəməsində 1314 şəxs barəsində 1097 (bütün instansiya məhkəmələri üzrə cəmi 15 min 455 şəxs barəsində 13501 iş olmaqla) cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilib.

Bildirilib ki, daxil olmuş ərizə və şikayətlərə vaxtında və düzgün baxılması, müxtəlif sahələr üzrə müraciət etmiş vətəndaşlara hüquqlarının hərtərəfli və tam izah edilməsi məqsədilə Baş Prokurorluqda yaradılmış 961 saylı Çağrı Mərkəzində hesabat dövründə 17 min 421 müraciət qeydə alınıb. Onlardan 653-ü cinayət xarakterli məlumatlar olduğu üçün qeydə alınıb araşdırılması üçün aidiyyəti struktur qurumlara tapşırılıb, digərləri üzrə isə müvafiq hüquqi izahlar verilib.

Hesabat dövründə koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmləndiyi, səmərəli əməkdaşlıq nəticəsində ağır və xüsusilə ağır cinayətlər törətməkdə təqsirləndirilən və ədalət mühakiməsindən yayınmaqla xaricdə gizlənən 30 şəxsin tutularaq ölkəmizə ekstradisiyasının həyata keçirildiyi bildirilib.

Qeyd edilib ki, prokurorluq orqanlarının fəaliyyətinin elmi-nəzəri təminatının gücləndirilməsi, hüquq elminin inkişafı və Avropa hüquq təcrübəsinin tətbiqi ilə əlaqədar prokurorluq işçilərinin nəzəri biliklərinin, peşə hazırlığının artırılması, prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki köməklik göstərilməsi məqsədilə Baş Prokuror yanında Elmi-Məsləhət Şurasının 32 nəfərdən ibarət yeni tərkibi təsdiqlənməklə ötən ilin sentyabrında ilk iclas keçirilib.

Prezident İlham Əliyevin dövlət gənclər siyasəti çərçivəsində ölkəmizdə mütərəqqi tədbirlər həyata keçirilir. 2002-ci ildən başlayaraq keçirilən 21 müsabiqə əsasında işə qəbul edilən hüquqşünaslar hazırda prokurorluq işçilərinin 70 faizini təşkil edir. Həmin işçilərin bir çoxu ötən il Baş Prokurorluğun idarə rəisi, rayon və şəhər, ərazi hərbi prokuroru vəzifələrinə təyin olunub.

Kollegiya iclasında Prezident İlham Əliyevin dövlət gənclər siyasəti çərçivəsində ölkəmizdə həyata keçirilən mütərəqqi tədbirləri qeyd edən baş prokuror 2002-ci ildən başlayaraq təşkil olunan 21 müsabiqə əsasında işə qəbul edilən hüquqşünasların hazırda prokurorluq işçilərinin 70 faizini təşkil etdiyini bildirib. Həmin işçilərin bir çoxunun ötən il Baş Prokurorluğun idarə rəisi, rayon və şəhər, ərazi hərbi prokuroru vəzifələrinə təyin olunmaları diqqətə çatdırılıb.

Kollegiya iclasında Baş Prokurorluqda yeni yaradılmış Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi tərəfindən hesabat dövründə müsbət iş göstəricilərinə nail olunduğu, bu sahədə prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun olaraq işlərin səmərəliliyinin artırılmasının vacibliyi qeyd edilib.

Bildirilib ki, dövlətin həyata keçirdiyi sosialyönümlü siyasətin prioritetlərinə uyğun olaraq, prokurorluq orqanlarında koronavirus pandemiyası ilə əlaqədar məhdudiyyətlərə baxmayaraq, 2020-ci ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılıb. Müraciətlərin obyektiv araşdırılmaqla şikayətləri doğuran səbəblərin aradan qaldırılmasına, qanunauyğun, ədalətli qərarların qəbul edilməsinə nəzarət və tələbkarlıq gücləndirilib. Prokurorluq orqanlarına daxil olmuş müraciətlərin 9777-sinin tam, 708-nin isə qismən təmin olunması vətəndaş məmnunluğunun təmin olunması üzrə həyata keçirilən tədbirlərin nəticəsi kimi qiymətləndirilməlidir.

İclasda qeyd edilib ki, hesabat dövründə öz fəaliyyətini müasir tələblər səviyyəsində qura bilməyən, prokurorluq işçisinə yaraşmayan hərəkətlərə, xidməti intizamın kobud pozuntusuna yol verən və vəzifələrini layiqincə yerinə yetirə bilməyən 30 nəfər prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib. Onlardan 2-si prokurorluq orqanlarından xaric, 8 nəfər vəzifədən azad edilib, 15 nəfərə töhmət və ya şiddətli töhmət, 5 nəfərə isə digər intizam tənbehi tədbirləri tətbiq olunub.

Ötən müddətdə Baş Prokurorluğun fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması və maarifləndirmə məsələlərinin xüsusi əhəmiyyəti nəzərə alınmaqla Mətbuat xidmətinin işi daha da təkmilləşdirilib. Verilən informasiyanın daha çox oxucu kütləsinə çatdırılması məqsədilə qurumun sosial şəbəkələrdə rəsmi səhifələri açılıb, Baş Prokurorluğun yeni veb-saytı istifadəyə verilib.

Kollegiya iclasında fəaliyyətdə səmərəliliyin artırılması, işğaldan azad edilmiş rayonların prokurorluqlarının peşəkar kadrlarla komplektləşdirilməsi, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş, itkin düşmüş və əlil olmuş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının hər bir müraciətinə xüsusi diqqət və həssaslıqla yanaşılması, artım tendensiyası müşahidə edilən cinayətlərin qarşısının alınması, bağlı qalan bütün cinayətlər üzrə təqsirli şəxslərin müəyyənləşdirilməsi, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət və prosessual rəhbərliyin keyfiyyətinin artırılması və digər istiqamətlərdə konkret tapşırıqlar verilib.

Daha sonra baş prokurorun birinci müavini Elçin Məmmədov, baş prokurorun müavini-Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyev, baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov, baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Bakı şəhər prokuroru İlqar Abbasov, Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru Yaşar Həsənov, Baş Prokurorluğun Təşkilat və İcraya Nəzarət İdarəsinin rəisi Elşən Abbasov, Gəncə şəhər prokuroru Azad Qarayev, Füzuli rayon prokuroru Elnur Rüstəmov və Qazax rayon prokuroru Rauf Gözəlov hesabat dövründə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair çıxışlar edib, müzakirələrlə bağlı fikir mübadiləsi aparılıb.

Kollegiya iclasına yekun vuran baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının kollektivi adından əminliklə bildirib ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün bundan sonra da digər aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə zəruri tədbirlər görəcək.



QARABAĞ
dirçəliş yolundadır



# “İlham Əliyev Qarabağa yolumuzu açdı”

## Ağdamlılar qayıdış gününü səbirsizliklə gözləyirlər





Əvvəli 1-ci səh.

Saybalı kəndindən məcburi köçkün düşdükdən sonra bir müddət İmişli rayonunda məskunlaşıblar. 1994-cü ildə isə Quzanlı qəsəbəsində salınan şəhərçikdə yerləşiblər:

- 27 il ağrı-acı içərisində yaşamaq çox çətindir. Hələ üstəlik də övladının biri Vətən uğrunda şəhid ola. Oğlum Qaryağdı (1992-ci il təvəllüdlü) 2014-cü ildə şəhidlik zirvəsinə ucalıb. Ağdamda yerləşən “N” saylı hərbi hissədə müddətdən artıq hərbi qulluqçu kimi xidmət edirdi. Düşmənin diversiya qrupunun hücumunun qarşısını alarkən şəhid olub. Ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif edilib.

Şəhid atası kimi bu gün ikiqat sevinc hissi yaşayıram. Həm torpağımız işğaldan azad olub, həm də oğlumun qanı yerdə qalmayıb. Ali Baş Komandan İlham Əliyevin qüdrətli Ordusu Qaryağdımın qisasını alıb bizi doğma yurdumuza qaytarır. Dünən özümü yaxşı hiss etmirdim. Allaha yalvardım ki, kəndimizə qayıdanadək mənə möhlət versin. O torpağı qucaqlayım, ondan sonra nə baş verir versin...

İndi bəziləri bizdən soruşur ki, qayıdacaqsınızmı kəndinizə? Bunu heç soruşarlar? İllərdir torpaq həsrəti ilə alışıb-yanırıq, necə qayıtmamaq olar. Bu gün desinlər ki, qayıdırsınız, yüyürə-yüyürə gedəcəyik yurdumuza. Elə bilirəm ki, o yerlərə qayıtmaq istəməyən olmaz. Əks halda atalarımızın, babalarımızın ruhları bizi bağışlayarmı?”

Şəhid anası Məzəli Əhmədova da həyat yoldaşı ilə eyni fikirdədir. Deyir ki, torpaqlarımızın azad edilməsindən sonra bütün şəhidlərimizin ruhu rahatlıq tapdı: “İndiyədək fikirləşirdik ki, həm dədəbabalarımızın, həm də şəhid olan övladlarımızın ruhları bizi bağışlamayacaq. Biz hansı üzlə o dünyaya gedəcəyik. Amma İlham Əliyev bu hissi üzərimizdən götürdü. Tanrı Prezidentimizə uzun ömür versin. Mən bir şəhid anası kimi inanıram ki, İlham Əliyev Qarabağı necə aldısa, elə də onu yenidən dünyanın ən gözəl diyarına çevirəcək. Allah Prezidentimizin yardımçısı olsun! Tezliklə dədə-baba yurdumuza qayıdıb xoşbəxt günlərimizi yaşayacağıq”.





### “Ağdamı bizə qaytaran İlham Əliyevə ömürboyu minnətdarıq”

Ağdamın Boyəhmədli kənd sakini, 74 yaşlı Nizami İslamov da 27 il sonra arzusuna çatanlardan biridir. 1993-cü ildən məcburi köçkün həyatı yaşayan İslamovlar ailəsi də böyük sevinc içərisindədir.

1996-cı ildən Quzanlıda inşa edilən şəhərcikdə məskunlaşan İslamovlar ailəsinin hər bir üzvü Boyəhmədliyə qayıtmaq üçün hazırdır. “Kənddən çıxarkən 3 övladım var idi. Bu gün hamısı ailə qurub. 7 nəvəm var. Nəvələrimin hamısına kəndimizlə bağlı xoş xatirələrimi danışmışam. Onlar da bu gün Boyəhmədlini görmək üçün çox darıxırlar. Allah Prezideti var etsin. Bizi elimizə-obamıza qovuşdurdu. Odur ki, İlham Əliyevə ömürboyu minnətdarıq”, - deyə Nizami İslamov bildirdi.

Nizami İslamovun qardaşı oğlu Alim İslamov artıq kəndlərinə iki dəfə baş çəkib. 17 yaşında Boyəhmədlini tərk edən Alim deyir ki, ermənilər kənddə daşı-daş üstündə qoymayıblar: “Xüsusi nümayəndə heyəti ilə iki dəfə kəndimizə baş çəkdim. Xatirələrim yenidən oyandı. 11-ci sinfi bitirib kəndimizdən çıxmışdım. Ən gözəl günlərimi keçirmişdim Boyəhmədlidə. 27 ildən sonra qayıdıb ürəkağrısı ilə seyr etdim doğma yurdumuzu. Qəhər boğdu məni, özümü saxlaya bilmədim. Amma ürəyim dağa dönmüşdü. Axı illərlə həsrətini çəkdiyim kəndimizə qayıtmışdım.

O qədər sevincliyəm ki, sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bu sevinci bizə yaşadan Prezident İlham Əliyev var olsun. İnşallah tezliklə Ağdamın kəndlərində bütün infrastrukturlar qurular, həyat yenidən qaynayar, bizlər də doğma yurdumuzda yaşayıb yaradarıq”.

### İlham Əliyev ağdamlıların həyatında ən müqəddəs dövrün müəllifinə çevrildi

Quzanlıda həmsöhbət olduğumuz “Qarabağ Qaziləri” İctimai Birliyinin Ağdam rayon şöbəsinin rəhbəri Şamil Əbilov Birinci Qarabağ müharibəsinin iştirakçısı, ehtiyatda olan zabitdir. Şamil deyir ki, 1992-93-cü illərdə ölkə rəhbərliyində təmsil olunan şəxslərin xəyanəti nəticəsində işğal edilən torpaqlarımızı Ali Baş Komandan İlham Əliyev 27 il sonra güc yolu ilə, qan bahasına düşmən tapdağından azad etdi. İşğalçı Ermənistan cəmi 44 günə Azərbaycan qarşısında diz çökdü. Buna görə də Azərbaycan xalqı tarixboyu İlham Əliyevə minnətdar olacaqdır.

“Bu gün Qarabağ bizimdir deyəndə insanın gözləri sevincdən dolur. Axır ki, düşmənə yerini göstərə bildik. Bir də ki, dünya Azərbaycanın qüdrətini gördü. Ali Baş Komandan İlham Əliyev bir daha sözünün üstündə durdu və necə demişdisə, elə də etdi. 27 illik həsrətdən sonra qüdrətli Ordumuzun Ağdam rayonunun işğal edilmiş ərazilərinə daxil olması həyatımızın ən xoşbəxt, ən qürurlu günləri oldu. Ali Baş Komandanımız isə ağdamlıların həyatında ən müqəddəs dövrün müəllifinə çevrildi”, - deyə o bildirdi.

Ağdamın Seyidli kəndindən olan Şamil də doğma kəndinə qayıdacağı günü gözləyir və əmindir ki, tezliklə dövlətimiz Qarabağı yenidən qurmaqla el-obalarına qayıdacaq insanların layiqli yaşayışını və məşğulluğunu ən yüksək səviyyədə təmin edəcək.

### Ağdam daha “ruhlar şəhəri” yox, düşmənə gözdağı olan möhtəşəm qalaya çevriləcək

Ağdamda gördüklərimiz, eşitdiklərimiz çox qürurverici idi. Məşəqqətlərə düçar olan, həyatlarını sıfırdan qurmağa məcbur qalan, respublikanın 62 şəhər və rayonunda yataqxanalarda, vaqonlarda, yarımçıq tikililərdə məskunlaşan ağdamlılar sevinc içərisində böyük Qayıdış gününü gözləyirlər.

Həmsöhbət olduğumuz hər bir kəs əminliklə vurğulayırdı ki, Qarabağı 44 günə düşməndən geri alan Ali Baş Komandan İlham Əliyev tezliklə bu diyarı Gülüstana çevirib Azərbaycanın qüdrətini növbəti dəfə dünyaya göstərəcək. İşğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə həyat yenidən öz axarına dönəcək, onların əvvəlki şöhrəti bərpa olunacaq.

Ali Baş Komandan İlham Əliyevin qələbədən sonra Ağdama səfəri zamanı söylədiyi kimi: “Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik...”.

Məhz bu diqqət və qayğı ilə Ağdam daha “ruhlar şəhəri” yox, düşmənə gözdağı olan möhtəşəm qalaya çevriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***Lazım QULİYEV,***
***“Azərbaycan”***

# Qonaqlarımız Qarabağa həm də təyyarə ilə gələcəklər

## Azad edilmiş ərazilərdə tikiləcək iki hava limanı yerli əhalinin rahatlığına və turizmin inkişafına xidmət edəcək

Əvvəli 1-ci səh.




Digər vacib layihə Toğanalı-Kəlbəcər yoludur. Bu yol da coğrafi şəraiti çətin olan ərazidən keçir, bəzi yerlərdə yüksəklik 3500 metrə çatır. Bununla belə, işlərə artıq start verilib. Həmçinin Horadizdən Zəngilana, oradan Qubadlıya və sonra da Laçına qədər yol çəkilməsi üçün hazırlıq işləri gedir. Toğanalıdan Kəlbəcərə çəkiləcək yol da Laçın rayonuna qədər davam etdiriləcək. Bu isə o deməkdir ki, Laçın və Kəlbəcər rayonlarına iki tərəfdən - şimaldan və cənubdan yolnəqliyyat infrastrukturu yaradılacaq.

Qarabağda polad magistrallar da şaxələnəcək. Belə ki, Horadiz-Füzuli və ondan sonra Füzuli-Şuşa dəmir yolunun çəkilməsi nəzərdə tutulur. Düşmənin dağıdıb sıradan çıxardığı Horadiz-Ağbənd dəmir yolu yenidən tikiləcək. Naxçıvan dəhlizini açmaq üçün bu yol xüsusi əhəmiyyət daşıyır. Hazırda Naxçıvan dəhlizinin açılması üçün konkret işlər gedir. Bununla paralel olaraq, Naxçıvan MR-da dəmir yolunun bərpası və müasirləşdirilməsi istiqamətində də işlər aparılacaq.

Qonaqlarımız Qarabağa təkcə avtomobil və dəmir yolları ilə deyil, həm də hava yolları ilə gəlib-gedəcəklər. Qarabağda tikiləcək iki yeni aeroport əhalinin və yüklərin daşınması üçün də əlverişli olacaq.

Bu ilin yanvar ayında Şuşa şəhərinə səfər zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda Beynəlxalq Hava Limanının təməlini qoydular. Uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq bu hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq.

Təməlqoyma zamanı dövlət başçısı dedi: “Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər”.

Qarabağda tikiləcək hava limanları barədə bu il yanvarın 6-da ötən ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə də geniş bəhs olunub. Belə ki, Prezidentin göstərişinə əsasən, hazırda Laçın və ya Kəlbəcər rayonlarının ərazisində müasir beynəlxalq hava limanının tikilməsi üçün yer axtarılır. Məlum olduğu kimi, həmin bölgələrin coğrafi şəraiti bu məsələnin həlli üçün bir qədər mürəkkəbdir, yəni ərazilərin mütləq əksəriyyəti dağlıqdır. Orada düz yer tapmaq çətin olduğu üçün indi araşdırmalar aparılır. Beləliklə, yaxın gələcəkdə Laçın, yaxud Kəlbəcər rayonunda da yeni beynəlxalq hava limanı tikiləcək.

Sözügedən müşavirədə Prezident İlham Əliyev Füzuli aeroportunun tikintisi ilə paralel olaraq artıq bu şəhərdən beynəlxalq uçuşların təşkili ilə bağlı ilkin araşdırmaların aparılmalı olduğunu da vurğulayıb:” Beynəlxalq aeroport beynəlxalq uçuşlar təşkil etməlidir. İlk növbədə, bizim aviaşirkətimiz “AZAL” bu məsələ ilə bağlı ciddi işləsin ki, aeroport açılandan sonra dərhal bizim qonşu ölkələrin bəziləri ilə hava nəqliyyatı təmin edilsin. Hesab edirəm ki, iki beynəlxalq aeroport Qarabağ zonasını bərpa etmək, yüklərin daşınması, turizmin inkişafı üçün bizə kömək göstərəcək. Eyni zamanda insanlar oraya qayıdandan sonra onların rahatlığı üçün də bunun böyük əhəmiyyəti olacaqdır”.

Qeyd edək ki, Azərbaycan dünya miqyasında nəqliyyat-logistika mərkəzi kimi mühüm rol oynayır. Ölkəmizin coğrafi mövqeyi çox əlverişlidir və bundan səmərəli istifadə etmək üçün mükəmməl infrastrukturun böyük əhəmiyyəti var. Ona görə nəqliyyat sektorunun inkişafı da prioritet məsələlərdəndir və bu sahəyə dövlət böyük investisiyalar yönəldir. Başqa sözlə, nəqliyyat və infrastruktur iqtisadi inkişafı şərtləndirən başlıca amillər sırasındadır.

Azərbaycan digər nəqliyyat infrastrukturu ilə yanaşı, öz hava limanlarının yüksək səviyyəli olması ilə də seçilir. Heydər Əliyev Beynəlxalq Aeroportu ən yüksək standartlara cavab verən, dünyanın ən gözəl və ən müasir hava limanlarından biridir.

Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları çərçivəsində ölkənin bir sıra digər şəhər və rayonlarında da aeroportlar tikilib. 2004-2014-cü illər ərzində ölkədə 7 aeroport istifadəyə verilib ki, onlardan 5-i beynəlxalq statusa malikdir.

2004-cü ildə beynəlxalq standartlara cavab verən Naxçıvan Beynəlxalq Hava Limanı işə düşüb. 2006-cı ildə Gəncədə, 2008-ci ildə Lənkəranda və Zaqatalada, 2011-ci ildə Qəbələdə beynəlxalq hava limanları tikilib, müasir uçuş-enmə zolaqları inşa edilib. 2013-cü ildə Yevlax hava limanının yenidənqurma işləri başa çatdırılıb.

Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksinin açılışı isə 2014-cü il aprelin 23-də olub. Yeni aerovağzal kompleksinin istifadəyə verilməsi bu hava limanının strateji əhəmiyyətini daha da artırıb.

Yaxın gələcəkdə hava limanlarımızın sırasına daha 2-si qoşulacaq. Onlar düşmən tapdağından azad olunmuş əzəli-əbədi Qarabağımızda fəaliyyət göstərəcək, inkişafa, tərəqqiyə, dünya ölkələri ilə sıx ünsiyyətə, insanlarımızın rahatlığına xidmət edəcək.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Ölkəmiz postmüharibə və postpandemiya dövrünü də uğurla başa vuracaq

Əvvəli 1-ci səh.

Koronavirus xəstələrinə qulluq edən həkimlərin maaşları artırıldı, onlar əməkhaqlarının 3-5 misli həcmində maaş alırlar. Çox böyük sosial paket təqdim edildi. Bir neçə milyard manat dəyərində sosial paket koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən qeyri-formal çalışan və işsiz vətəndaşlara yardım kimi göstərildi. Bu gün biz peyvəndi gözləyirik. Ümid edirik ki, peyvənd bu ay ərzində Azərbaycana gətiriləcək”.

Postkonflikt və postkorona dövrünə qədəm qoyan Azərbaycan iqtisadiyyatı Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək artım trayektoriyasına keçmək imkanlarına malik olduğunu sübut edir. 2020-ci il bütün ölkələr üçün iqtisadi baxımdan ağır dövr olmasına baxmayaraq, Azərbaycan üçün elə də kritik olmadı. İqtisadiyyatımız 4 faizdən bir qədər çox azalsa da, bədbinlyə əsas vermir. Ən azı ona görə ki, ötən il qeyri-neft sənayemiz 11 faizdən çox artmışdır. Bu isə qeyri-neft sektorunun inkişafının davam etməsi deməkdir. Bu sektorda yüksək paya malik kənd təsərrüfatında da artım olmuşdur - 2 faiz. Azad edilmiş torpaqlarda payızlıq əkinin aparılması isə bu sahədə daha yüksək artıma nail olmağa imkan verəcək.

Eyni zamanda Dövlət Neft Fondunun vəsaitləri az da olsa - təqribən 0,5 faiz artmışdır. Prezident İlham Əliyev bunu uğurlu amil kimi qeyd etmişdir: “Baxmayaraq ki, biz koronavirusla mübarizəyə milyardlarla manat yönəltmişik, müharibə aparmışıq və digər xərclər olubdur. Bu yaxınlarda qəbul edilmiş qərarlar əsasında şəhid ailələrinin müavinəti 300 manatdan 500 manata qaldırılıb. Yəni bütün bunlar böyük maliyyə yüküdür. Amma dövlətin dayanıqlılığı, ölkəmizin uğurlu siyasəti nəticəsində biz buna nail ola bilmişik”.

Ötən ilin sonunda “Cənub qaz dəhlizi”nin tam istismara verilməsi Azərbaycan qazını tarixdə ilk dəfə olaraq Avropa məkanına nəql etməyə imkan vermişdir. Dövlət başçısı bildirir ki, bir çox ölkələri birləşdirən bu layihə gələcəkdə onlar və digər Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoymuşdur: “Bu əməkdaşlıq formatı bu gün artıq özünü nəqliyyat sektorunda, ticarət sektorunda göstərir, ondan sonra digər sektorlarda göstərəcək. Biz Avrasiyanın enerji xəritəsini yenidən tərtib etdik. Biz bir-birinə bağlı olan 3500 kilometr uzunluğunda 3 qaz kəmərini inşa etdik”.

Belə layihələrin işlənilməsi Azərbaycana həm iqtisadi, həm siyasi müstəvidə əlavə dividendlər gətirəcək. Yaxın günlərdə enerji sahəsində gözlənən hadisələr ölkə iqtisadiyyatının daha dayanıqlı olmasına zəmin yaradacaq.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlının sözlərinə görə, korona böhranının fərqli tərəfi bu oldu ki, dünya tarixindəki əvvəlki iqtisadi böhranlara nisbətən tez aradan qaldırılır. İqtisadiyyat 2021-2022-ci illərdə bərpa olunacaq, baxmayaraq ki, yüksək artım trayektoriyasına keçid hələ proqnozlaşdırılmır.

Azərbaycana gəldikdə isə İİTKM-in icraçı direktoru belə deyir: “Nobel laureatı Deni Rodrikin dediyi “aralıq institutlar”la bu dövrdə dövlət və millət quruculuq prosesini Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla aparır. Xüsusən də, ərazi bütövlüyünün bərpası, korona ilə mübarizədə son mərhələ - vaksinasiyaya ilk keçən ölkələrdən biri olmaq, aşağı neft qiymətləri şəraitində makroiqtisadi və ictimai-siyasi sabitliyi təmin etmək və yeni regional geosiyasi və geoiqtisadi arxitekturanın müəyyənləşdirilməsini İlham Əliyevin idarəetməsinin aktivinə yazmaq olar. Prezident İlham Əliyev hər bir çağırışı imkana çevirməyi bacaran liderdir. Qərb demokratiyasında yaşanan təlatümlər Qaret Consun “10 faiz az demokratiya” kitabında daha aydın izah olunur, əslində, ən yaxşı nəticə optimal hökumətin qurulmasıdır. Prezident İlham Əliyev Azərbaycanda optimal idarəetməni qurduğundan biz dünya üçün “Böyük Depressiya”dan sonra ən böyük böhran ili - 2020-ci ili imkana çevirməyi bacardıq. Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu fəaliyyəti ilə xüsusən də Azərbaycandakı bazar modelinə sosial rəng qatması ictimai müqavilə və harmoniya üçün vacibdir”.

Vusal Qasımlı apardığı təhlildə maraqlı bir müqayisə aparır: yapon fəlsəfəsində “kintsugi” - “qızıl bərpa” anlayışına görə sınmış məişət əşyası elə zövqlə bərpa edilir ki, sınığın izləri qalsa da, əşyanın sonu yox, ona verilən ikinci həyatın daha zəngin və daha uğurlu davamı göstərilir.

İlham Əliyevin də islahatçı lider kimi ən böyük üstünlüyü ondan ibarətdir ki, xalq-iqtidar birliyini ən mükəmməl səviyyəyə qaldıra bilmiş, 30 illik üzücü münaqişəni 44 günlük müharibədə qələbə ilə başa vurmuş, koronavirus pandemiyasından doğan böhrandan çəkinmədən islahatçı lider kimi iqtisadiyyatımızı tərəqqiyə kökləmiş, müharibə zonasını tikinti meydançasına çevirmişdir.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Zəhmətin bəhrəsi, illərin töhfəsi...

Hər bir insanın ömür yolunu onun mənəvi dünyası, gördüyü işlər, əməllər müəyyən edir. Xalqını, Vətənini sevərək milli-mədəni irsimizə hörmətlə yanaşan, respublikamızda musiqi təhsili sisteminin inkişafında, istedadlı ifaçıların, musiqiçi kadrların hazırlanmasında əvəzsiz xidmətləri olan tanınmış musiqi xadimi, gözəl pedaqoq, ictimai xadim Nazim Kazımov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə II dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.





Anadan olmasının 70, pedaqoji-elmi fəaliyyətinin 50 illiyi tamam olan həmkarımız, Əməkdar incəsənət xadimi, professor Nazim Kazım oğlu Kazımov xalqına, Vətəninə sədaqətlə xidmət edən zəhmətsevər insandır. Bu mahir pedaqoqun ömür yolu dahilər, görkəmli sənətkarlar diyarı olan Naxçıvandan başlanıb. 1950-ci il aprelin 4-də dünyaya gələndə Kazım kişiyə, qohum-əqrabaların istəklisi Həcər anaya gözaydınlığı verənlər çox oldu. Nazimin körpəlik-uşaqlıq illəri də bir-birindən maraqlı keçdi.

1956-cı ildə ayaq açdığı Naxçıvan şəhər Üzeyir Hacıbəyli adına 1 nömrəli orta məktəbdə və bir neçə il sonra Naxçıvan Şəhər Musiqi Məktəbinin tar sinfində oxuyarkən fəallığı ilə seçildi. Onda ədəbiyyata da, musiqiyə də güclü həvəs vardı. Ona görə də orta təhsilini başa vurarkən iki yolun ayrıcında qaldı. Lakin çox düşünmədən ədəbiyyatı da, musiqini də özünə "yol yoldaşı" seçdi. 1966-cı ildə mötəbər musiqi təhsili ocaqlarından sayılan Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunun Xalq çalğı alətləri şöbəsinin tar sinfinə daxil oldi. 1967-ci ildən isə qiyabi yolla Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almağa başladı.

1970-ci ildə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunu bitirib təyinatla Əli Bayramlı Şəhər Musiqi Məktəbində tar müəllimi kimi pedaqoji fəaliyyətə başlayanda universitet təhsilini davam etdirdi və 1973-cü ildə filoloq ixtisası üzrə bitirdi. Musiqi təhsilini artırmaq üçün Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının xalq çalğı alətləri şöbəsinə daxil oldu. Onun daim oxumaq istəyi dost-tanışları tərəfindən təəccüblə qarşılandı. Hətta "bu qədər oxumaqla nə qazanacaqsan" deyənlər də oldu.

Ancaq Nazim müəllim inadından dönmədi. Bilirdi ki, inkişafa, tərəqqiyə, yüksəlişə aparan yolların əsas cığırları məhz ixtisas məktəbindən keçir. Buna görə də sevib-seçdiyi sənətin nəzəri-praktik məsələlərini mükəmməl mənimsəmək üçün gecə-gündüz hey çalışırdı. Müəllimləri onun qabiliyyətini yüksək qiymətləndirirdilər.

"Taleyin gərdişi ilə tələbəm olan Nazim Kazımov çox qabiliyyətli və həssas musiqiçidir. Onun ifaçılıq və pedaqoji fəaliyyətdə böyük uğurlar qazanacağına əminəm". Görkəmli bəstəkarımız, professor Səid Rüstəmov hələ 43 il əvvəl böyük iftixar hissi ilə yetirməsi haqqında təəssüratını belə bölüşürdü.

1970-ci ildə Əli Bayramlı Şəhər Musiqi Məktəbində əmək fəaliyyətinə başlayan N.Kazımov tezliklə şagirdlərin, onların valideynlərinin və pedaqoji kollektivin sevimlisi oldu. Sonralar Nazim müəllimin əmək kitabçasına yeni-yeni ünvanlar, təhsil ocaqları - Bakıdakı 15, 25 nömrəli musiqi məktəbləri yazıldı.

N.Kazımovun 50 illik əmək fəaliyyətinin 16 ili Əli Bayramlı Şəhər Musiqi Məktəbi ilə bağlıdır. O, bu məktəbdə tar müəllimi, tədris işləri üzrə direktor müavini, direktor vəzifələrində çalışarkən məktəbin şöhrəti daha da artdı. Nazim müəllim o dövrdə şəhər sovetinin deputatı kimi uşaqların və məktəbli gənclərin estetik tərbiyəsi naminə bir sıra mədəni-kütləvi tədbirlərin həyata keçirilməsinə, yeni musiqi kollektivlərinin - xalq çalğı alətləri orkestrinin və ansamblının yaradılmasına nail oldu. Respublikada müxtəlif devizlərlə keçirilən baxışlarda, müsabiqələrdə məktəbin gənc istedadları həmişə fərqlənir, aldıqları fəxri fərmanların, diplomların sayı ilbəil artırdı.

Pedaqoji fəaliyyətinin ilk günlərindən musiqi təhsili sisteminin təkmilləşdirilməsi naminə əzmlə çalışan Nazim müəllim istedadların vaxtında aşkara çıxarılmasına da xüsusi diqqət yetirmişdir. Ariz Abduləliyev, Rahib Məmmədov, Əmirhüseyn Hüseynov, Ramiz Əliyev, Bakıxan Müzəffərov, Fəxrəddin Qafarov, Cəfər Qafarov, Yaqub Manafov və başqaları respublikamızda musiqi təhsili sistemində mühüm əhəmiyyət kəsb edən fikir və söz sahibləri olmaqla yanaşı, praktik fəaliyyətləri ilə də tanınırlar.

Nazim müəllim 1992-ci ildə Təhsil Nazirliyində mütəxəssis kimi fəaliyyət göstərməyə irəli çəkildi. Burada o, təxminən 10 il aparıcı mütəxəssis, baş mütəxəssis, rəis müavini vəzifələrində çalışaraq təşəbbüskarlığı, səriştəliliyi ilə diqqəti cəlb etdi. O, eyni zamanda 1997-ci ildən 2001-ci ilədək Təhsil Nazirliyi Həmkarlar İttifaqı Komitəsinin sədri seçilir.

Nazim müəllim nazirlikdə işlədiyi müddətdə də həmişə yaradıcılığa, elmi axtarışa səy göstərmişdir. 1994-cü ildə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun dissertantı olanda bu səyi, həvəsi daha parlaq şəkildə nəzərə çarpdı, səsi respublikamızda keçirilən ən mötəbər elmi məclislərdən gəldi. Məhz bu səyin və səmərəli elmi araşdırmaların nəticəsində o, "Ümumtəhsil məktəblərində şagirdlərin musiqi qabiliyyətlərinin inkişafında muğam nümunələrindən istifadə üzrə işin sistemi" mövzusunda namizədlik dissertasiyasını tamamlayaraq müvəffəqiyyətlə müdafiə etdi.

Nazim Kazımov yaradıcılıq planlarını əzmlə həyata keçirən alimdir. O, dissertasiya müdafiəsindən sonra da gənc nəslin musiqi-estetik tərbiyəsi üzrə tədqiqatlarını davam etdirdi. "Azərbaycan məktəbi" jurnalında, "Azərbaycan müəllimi" qəzetində dərc olunan elmi-metodik məqalələri bu baxımdan əhəmiyyətlidir. N.Kazımovun çap etdirdiyi "Tar, kamança, qanun ixtisası üzrə pedaqoji təcrübə proqramı" (Bakı, 1998), "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri" (Bakı, 1996, 2000), "Tar ilə fortepiano üçün pyeslər məcmuəsi" (Bakı, 1999) həm Bakı Musiqi Akademiyasının, Milli Konservatoriyanın, həm də orta ixtisas musiqi məktəblərinin tələbələri üçün dəyərli vəsaitlər kimi qiymətləndirilir.

O, eyni zamanda ali musiqi tədrisi müəssisəsində pedaqoji fəaliyyətini davam etdirərək musiqiçi kadrların hazırlanmasında yaxından iştirak edir. Azərbaycan Dövlət Konservatoriyasında 1981-84-cü illərdə müəllim, 1993-1998-ci illərdə baş müəllim, 1998-2006-cı illərdə dosent vəzifələrində çalışır. 2006-cı ilin fevral ayında Azərbaycan Milli Konservatoriyasının Xalq çalğı alətləri kafedrasında professor vəzifəsinə seçilir. Böyük təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq 2001-ci ildə N.Kazımovu Milli Konservatoriyanın nəzdindəki Musiqi Kollecinə direktor təyin etdilər. Onun məqsədyönlü fəaliyyəti nəticəsində Musiqi Kolleci əvvəlki şöhrətini qaytararaq ölkənin ən nüfuzlu orta ixtisas musiqi təhsili müəssisəsinə çevrilmişdir. Musiqi təhsili sahəsindəki səmərəli fəaliyyəti layiqincə qiymətləndirilərək N.Kazımov müxtəlif vaxtlarda fəxri fərmanlara, "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanına layiq görüldü. 2006-cı ildə isə Nazim Kazımova ölkəmizdə musiqi təhsilinin, musiqi mədəniyyətinin inkişafına böyük diqqət və qayğı göstərən Prezident İlham Əliyevin sərəncamı ilə "Əməkdar incəsənət xadimi" fəxri adı verildi.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli bəstəkar və musiqi xadimi, Dövlət mükafatı laureatı Səid Rüstəmovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı. Ölməz sənətkarın xatirəsinə göstərilən bu hörmət və ehtiram Nazim Kazımovu çox sevindirdi. Üzərində işlədiyi "Səid Rüstəmov" monoqrafiyasını çapa hazırladı. 2007-ci ildə nəfis şəkildə buraxılan bu fundamental monoqrafiya Səid Rüstəmov sənətini layiqincə qiymətləndirənlərin - səidsevərlərin çox böyük marağına səbəb oldu.

Professor Nazim Kazımovun Azərbaycan bəstəkarlıq məktəbinin təməlini qoyanlardan biri kimi tanınan, ancaq 23 il ömür sürən (1909-1932) Asəf Zeynallının anadan olmasının 100 illiyinə həsr etdiyi dəyərli monoqrafiyası isə 2009-cu ildə çap olundu və dərs vəsaiti səviyyəsində dəyərləndirildi. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Xalq artisti, Dövlət mükafatı laureatı, "İstiqlal" ordenli, professor Arif Məlikov "Asəf Zeynallı haqqında ilk monoqrafiya" adlı ön sözdə yazır: "Monoqrafiyanın dərs vəsaiti kimi nəzərdə tutulması Azərbaycan musiqi tarixi, XX əsr Azərbaycan musiqi ədəbiyyatı fənləri üzrə müəllim və tələbələrə layiqli töhfədir. Digər tərəfdən, Asəf Zeynallı barədə musiqi ədəbiyyatının lazımi səviyyədə olmadığı müasir dövrdə bu monoqrafiya bəstəkarın həyat və yaradıcılığı haqqında geniş məlumata və dərs vəsaitinə olan tələbatı ödəyə biləcəkdir".

Ölkəmizdə musiqi təhsilinin, bütövlükdə, musiqi mədəniyyətinin inkişafı sahəsində pedaqoq, bəstəkar kimi öz dəstxətti ilə tanınan Adil Gəray Məmmədbəyliyə həsr etdiyi monoqrafiyası da diqqətə layiqdir. 2015-ci ildə nəşr olunan vəsaitdə görkəmli musiqi xadiminin geniş, hərtərəfli bəstəkarlıq və pedaqoji fəaliyyəti işıqlandırılır.

Nazim Kazımov Respublika Təhsil Şurası İdarə Heyətinin üzvü kimi geniş fəaliyyət göstərir. O, həyatının, yaradıcılığının müdrik çağında Azərbaycan Milli Konservatoriyası nəzdindəki Musiqi Kollecinə - burada çalışan yaradıcı kollektivə çox böyük diqqət və qayğı ilə rəhbərlik edir. N.Kazımov uzun illərin təcrübəsi nəticəsində əldə etdiyi yüksək peşəkarlıq, sağlam düşüncə, mühakimə qabiliyyəti, yüksək intellektual səviyyəsini müasir tələblərə uyğunlaşdıraraq kollecin gənc tələbələrini düzgün istiqamətdə lazımi ixtisasa yönəldərək, professional musiqiçi kimi yetişmələri üçün zəmin yaratmışdır. Zənnimcə, insanlıq xüsusiyyətlərinin müsbət cəhətlərini yüksək səviyyədə özündə birləşdirən N.Kazımovun bilik və bacarığını əsirgəmədiyi Azərbaycan Milli Konservatoriyasının nəzdindəki Musiqi Kollecinin direktoru kimi məsul bir vəzifənin icrasında ildən-ilə artan uğurlarının səbəbi məhz bundadır.

Səmimi, xeyirxah, nəcib, qayğıkeş insan olan Nazim Kazımov ictimaiyyətin, işlədiyi kollektivin dərin hörmət və məhəbbətini qazanmışdır. Yaşından, vəzifəsindən asılı olmayaraq hər bir şəxslə gözəl ünsiyyət qurmağı bacaran, istedadlı gənclərə dayaq olan Nazim Kazımovun fəaliyyəti kollecin daha böyük müvəffəqiyyətlərə imza atmasına doğru istiqamətlənmişdir.

Bütün bunlar böyük fəxrlə, ürək-qəlb genişliyi ilə belə fikir söyləməyə əsas verir ki, zəngin ənənəsi, tarixi olan bu möhtəşəm musiqi təhsili ocağının rəhbəri, professor Nazim Kazımov daha xoş günlərin, gələcək uğurların təməlini qoyur. Ömrünü müqəddəs musiqi sənətinə vurğunluqla aşılayan həmkarımıza möhkəm cansağlığı, uzun ömür, daha böyük uğurlar arzulayırıq!

***Vidadi XƏLİLOV,***
***pedaqogika üzrə elmlər doktoru, professor, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar müəllim***

VƏTƏN SƏNƏ OĞUL DEYİR

...Elvin düşmən tapdağında qalan torpaqlarımızın azadlığı uğrunda canlarından keçən igidlərimizdən biridir. El-oba arasında deyirlər ki, elə bax belə oğullar el üçün doğulur, vətənpərvərlikləri ilə nümunəyə çevrilirlər.

# Ölməzliyin şərəfini yaşadan şəhid

## Gizir Elvinin son kəlmələri: "Suqovuşan da azaddır, komandir! "Qarabağ doğma candır - Azərbaycandır!"







Elvin İsgəndərov kimi qəhrəman oğullarımızın cəsur, qorxmaz, canını Vətənə qurban, sinəsini sipər edən igidlərimizin sayəsində 44 günlük Vətən müharibəsindən qalib çıxdıq. Bununla da dünyaya hərbi-diplomatik siyasətimizi, "Dəmir yumruq" gücümüzü nümayiş etdirdik. Ordumuzun qarşısında duruş gətirə bilməyən erməni quldur silahlıları haqqında yaradılan mifi isə hərbi texnikaları ilə birlikdə darmadağın etdik.

Müharibə od-alov, ölüm-itim, qazi olmaq deməkdir. Vətən uğrunda gedən savaşda qazi və şəhid olmağın şərəfini də bizə yaşatdı Elvin kimi oğullarımız. Onlar gözlərini qırpmadan mərd-mərdanə ölümün üstünə getdilər...

Elvin İsgəndərov 1989-cu il noyabrın 6-da Yevlax rayonunun Tanrıqullar kəndində dünyaya göz açmışdı. Vətənini canından çox sevdiyini ölümsüzlüyü ilə təsdiq etdi. Elvin şəhid olacağını əvvəlcədən hiss etmişdi. O, düşmənə göz açmağa imkan verməyən qəhrəmanlarımızdan olduğu üçün bilirdi ki, yağılar onu hədəf seçəcəklər. Ona görə də imkanı çatan qədər düşməndən qisasını almağa çalışırdı. Məhz bu amalla döyüşdüyü üçün indi o, ən yüksək zirvədədir.

"...Ötən ilin sentyabr ayı idi. Elvinin qız balası Nuray bu ayda doğulmuşdu. O gün Elvin sanki balasını ilk dəfə görürmüş kimi, ondan ayrıla bilmir, bağrına basır, doyunca, həm də "acgözlüklə" öpürdü. Onu hissləri heç vaxt aldatmamışdı. Bu dəfə də onun ürəyinə nəsə dammışdı..."

Ötən il sentyabrın 27-dən başlayan Vətən müharibəsinə o da qatılır və bunu ailəsindən gizli saxlayırdı. Talış, Suqovuşan istiqamətində gedən döyüşlərdə nəinki iştirak edir, hətta düşmənə ağır zərbə endirənlərdən biri kimi ad qazanır. Ömür-gün yoldaşı Rəfiqə xanım İsgəndərova bizimlə söhbətində fikirlərini cəmləşdirməyə çalışır: "...Mənə söz vermişdi ki, bir həftədən sonra gəlib məni aparacaq. Bakıda xəstəxanadaydım. O, dünyaya yenicə gələn, hələ üzünü görmədiyi oğluna ad qoymağı düşünürdü. Elə sevinirdi ki, dünyaya oğlu gəlib. Mənə zəng vurdu. Uşağa ad qoymaq lazım olduğunu dedim. Ürək-dirək verdi mənə. Mən də dedim ki, darıxma, özünü qoru. Gələrəm evə, sən də qayıdarsan, inşallah, oğlumuzun adını birlikdə qoyarıq. Bir də qəti şəkildə dedi ki, yox, qızımız Nurayın adına yaraşdırıb Nuran qoyarsan. Onu da dedi ki, heç kimə heç nə demə, ancaq uşağın adını onun qulağına pıçılda. Ona görə də adını Nuran qoydum, Elvinin öz istəyi və arzusu ilə... Oğlu dünyaya gəldiyi 15 gün olardı ki, o, şəhid oldu. Balasının üzünü belə görə bilmədi..."

Əmisi oğlu Mahir Hünbətov deyir ki, 2009-cu ilin yanvarında həqiqi hərbi xidmətə gedib: "2010-cu ilin yayında hərbi xidmətdən qayıdıb. Lakin, o, əslində, orta məktəb illərindən hərbçi olmaq istəyində olub. Onun bu arzusu 2015-ci ildə həyata keçib: "N" saylı hərbi hissədə müddətdən artıq hərbi xidmətə başlayıb - "maxe" kimi. 2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olan Elvin bundan sonra kiçik gizir rütbəsini alıb. Ötən il 44 günlük Vətən müharibəsinin başladığı ilk gün - 27 sentyabr tarixi onun da ömrünə sonuncu nöqtəni qoyub..."

Təsadüfə baxın ki, Elvinin ad günü onun 40 mərasimi ilə eyni tarixə - 6 noyabra düşdü... 31 yaşının sevinclərini yaşada bilmədi doğmalarına. O gün iki körpəsi - Nurayını, üzünü yalnız mobil telefonda gördüyü Nuranını, onların anası Rəfiqə xanımı, Aidə anasını, atası Mətləbi, bacısı Aytəkini, qardaşı Hüseyni, canından da çox istədiyi əmisi oğlu Mahiri... gözüyaşlı qoydu, gəlmədi.

Şəhidin atası Mətləb İsgəndərov deyir ki, Talış yüksəklikləri uğrunda gedən döyüşlər zamanı ermənilərin atdığı güllələr onu hər iki çiynindən yaralamışdı. Ata qəlbidir, şəhid oğlunun müəyyən xarakterlərini də unutmamağa çalışır: "Elvində hərbiyə maraq çox güclü idi: "O, hərbi geyimini çox sevirdi. İcazə verməzdi ki, onun özündən başqa geyiminə kimsə əl vursun. Elvin Vətənini canından əziz bilən oğullardan olub. Deyirdi ki, hər doğulan övlad Vətənə gərəkli olmaz, ata! Vətənə niyə ana deyirik?! Çünki o, xalqımızın ana qucağıdır - dağı da bizim üçün əzizdir, aranı da, dərəsi də, təpəsi də, qışı da, yazı da. Vətən uğrunda şəhid olmaq şərəfdir, bunu bizdən öncəkilər sübut ediblər. Kaş mənim də adım o sırada çəkiləydi. Hər kəsə bu müqəddəs zirvə nəsib olmur. Xalqım, siz fəxr edəydiniz ki, mən də Vətən oğlu olmaq üçün doğulmuşam..."

Atası Elvinin mərdliyindən danışmaqdan doymur: "Elə ona görə də yolundan dönməzliyinə əmin idik. Vallah, bilirdim ki, şəhid olacaq, ona görə ki, qorxu bilməyən, canından keçməyə hazır olan, vətənpərvər, irəlidə gedən, düşməninin qənimi idi".

Anası da Vətənə qurban verdiyi oğlunun erkən yaşlarından sanki qəfildən böyüməsini hiss etdiyini dilə gətirir: "Deyirdik ki, bala, ermənilər amansızdır, sənə bir şey olarsa neyniyərik? Gülürdü, başını bulayırdı. Deyirdi ki, Vətənin belə dar günlərində mənim kimi oğul yanınızda, dizinizin dibindəmi oturmalıdır?! Bilirsiz ki, mən hərb üçün doğulmuşam. Bu hərbi geyimimi şəhidliyimdən sonra soyunacam, arxayın olun. Bu geyim məni qoruyur, həm adımı, şərəfimi, həm də sizi. Bircə öz canını qorumadı, Vətənini, xalqını canından artıq sevən balam şəhid olacağını sanki bilirdi. Onun hissləri çox güclü idi. Bir şey haqqında nə deyirdisə, dilinə nə gəlirdisə, başı çəkirdi, qabağına çıxırdı..."

Taqım komandirinin müavini, qrup komandiri Elvin İsgəndərov şəhidlik zirvəsinə ucalaraq könüllərdə özünə əbədi yer tutdu. O, ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edildi. Məkanı cənnət, ruhu şad şəhidim, igidliyin dillər əzbəridir. Bu gün sənin doğmalarından çox döyüş dostlarının, vətənpərvərliyinlə qürur hissi yaşatdığın xalqının dilinin əzbərisən...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin 5 il ərzində mənzil və ya fərdi evlə təminatı işləri aparılacaq

Prezident İlham Əliyevin 2021-ci il 25 yanvar tarixli "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı həmin kateqoriyadan olan əhali qruplarına dövlət başçısının xüsusi qayğısının növbəti təzahürüdür.

AZƏRTAC xəbər verir ki, sənəd 2020-ci ildə Ordumuzun həyata keçirdiyi hərbi əməliyyatlar zamanı şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın ailələrinin və bu müharibə ilə əlaqədar əlilliyi müəyyən edilən şəxslərin də yaxın dövrdə mənzil və ya fərdi evlə təminatını nəzərdə tutur.

Sərəncamda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə aşağıda qeyd edilən şəxslərin (ailələrin) 2021-2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla tədbirlər planını təsdiq edib həyata keçirməsi tapşırılır:

- 2014-cü il yanvarın 1-dən 2020-ci il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin, şəhid ailələrinin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi və hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin;
- Yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və 2020-ci ildə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri.

Sərəncamda yerli icra hakimiyyəti orqanlarına həmin şəxslər barədə məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etmək, nazirliyin müraciəti əsasında həmin şəxslərin mənzil və fərdi evlə təminatı məqsədləri üçün torpaq sahələrinin ayrılmasının təmin olunması, hər il görülmüş işlər barədə Prezidentə məlumat vermək tapşırılıb.

Məlumat üçün bildirək ki, indiyədək nazirlik tərəfindən 9100-dən çox mənzil və fərdi ev şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.

# Sumqayıtın daha bir ekoloji problemi həll olunur

Sumqayıtda son illər bir sıra ekoloji layihələr həyata keçirilir.





Bu layihələr çərçivəsində şəhərdə uzun illər sakinləri narahat edən ekoloji problemlər həll olunur. Belə problemlərdən biri də "Acı dərə" kanalı ilə bağlı idi.

Hazırda "Aci dərə" kanalı qapalı sistemə keçirilir. Şəhərin ərazisindən keçən kanalın qapalı sistemə salınması üçün inşa edilən beton kanalizasiyanın bir hissəsi artıq hazırdır. Layihənin qısa müddətdə başa çatması üçün əraziyə lazımi sayda texnika və işçi qüvvəsi cəlb edilib.

Qeyd edək ki, "Acı dərə" kanalına yeraltı və kanalizasiya suyu axıdılır. Kanalın üzəri açıq olduğundan ətrafı dözülməz üfunət iyi bürüyürdü. Bəzi yağışlı günlərdə çirkli sular küçələrdən axır, gediş-gəliş çətinləşirdi. Belə vəziyyət həm də ərazidə yaşayan 20 mindən çox insanın həyatı üçün təhlükə törədirdi. Yağış yağdıqda kanalın çirkli suyu həyətyanı sahələrə və yaşayış evlərinin zirzəmilərinə daxil olurdu. Dövlət vəsati hesabına görülən işlər başa çatdıqdan sonra sakinlərin bu probleminə son qoyulacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Baş Prokurorluq azərbaycanlı dənizçinin Nigeriya sahillərində öldürülməsi ilə bağlı məlumat yayıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Nigeriya sahillərində üzən, Türkiyənin "Boden Denizcilik" şirkətinə məxsus "Mozart" adlı gəmiyə yanvarın 23-də dəniz quldurları tərəfindən edilən hücumla bağlı məlumat yayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, ilkin araşdırma nəticəsində gəminin 19 nəfər heyət üzvündən 15-nin girov götürüldüyü, 1 nəfərin isə öldürüldüyü müəyyənləşdirilib. Öldürülən şəxsin Azərbaycan Respublikasının vətəndaşı, 1976-cı il təvəllüdlü, gəmidə 2-ci mühəndis vəzifəsində çalışan Fərman Əli oğlu İsmayılovun olduğu müəyyən edilib. Faktla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb və zəruri istintaq əməliyyat tədbirləri həyata keçirilir.

Hazırda Azərbaycanın Xarici İşlər Nazirliyi, habelə xarici ölkələrin aidiyyəti qurumları ilə intensiv danışıqlar aparılmaqla, həmin cinayət işi üzrə Türkiyə, Qabon və Liberiyanın səlahiyyətli orqanlarına hüquqi yardım haqqında sorğular hazırlanır.

Baş Prokurorluq tərəfindən təxirəsalınmadan Liberiyanın Baş Prokurorluğu ilə əlaqə yaradılıb. Qarşı tərəf bu məsələnin araşdırılmasında Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə yaxından əməkdaşlıq etməyə hazır olduğunu bildirib.

